Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# TAHİR SALAHOV

## *Biblioqrafiya*

**Bakı - 2013**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# ТАИР САЛАХОВ

## *Библиография*

**Баку – 2013**

**KBT** Я 19:Щ14 (2A)
**UOT** 016:7.071.1

**Tərtibçilər:** **Sevgiyə Əsədova**
**Lalə Şirinova**

**Buraxılışa məsul və ixtisas redaktoru:** **Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Mədinə Vəliyeva**

**Tahir Salahov**: biblioqrafiya /tərt. ed.: S.Əsədova, L.Şirinova; ixt. red. və burax. məsul K.Tahirov; red. M.Vəliyeva; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2013.- 320 səh.

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından nəşr etdiyi Tahir Salahov haqqında ilk biblioqrafik göstərici rəssamın 85 illik yubileyinə həsr olunmuşdur. Vəsait rəssamın həyat və fəaliyyətinin 1963-cü ildən 2013-cü ilədək olan dövrünü əhatə edir. Azərbaycan və rus dillərində tərtib edilən göstəricidə Tahir Salahovun həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, əsərlərinin kataloqu öz əksini tapmışdır.

Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-460-30-8**

**© Azərbaycan Milli Kitabxanası, 2013**

**ББК** Я 19:Щ14 (2А)
**УДК** 016:7.071.1

**Составители:** **Севгия Асадова**
**Лала Ширинова**

**Ответственный за выпуск**
**и спец. редактор:** **Керим Таиров**
*профессор,*
*Заслуженный работник*
*культуры*

**Редактор:** **Медина Велиева**

**Таир Салахов: б**иблиография /сост.: С.Асадова Л.Ширинова; ответст. за вып. и спец. ред. К.Таиров; ред. М.Велиева; Азербайджанская Национальная Библиотека.- Баку, 2013.- 320 с.

Первый библиографический указатель о Таире Салахове из серии «Жизнь выдающихся людей», изданный Азербайджанской Национальной Библиотекой, был посвящен 85-летию художника.

Указатель охватывает период жизни и деятельности художника с 1963 по 2013 гг. Здесь собраны его каталог произведений, статьи, опубликованные в периодической печати, литература о Таире Салахове. Изданное на азербайджанском и русском языках пособие, содержит основные даты жизни и творчества Таира Салахова, мысли выдающихся деятелей о нем, а также каталог его произведений.

**© Азербайджанская Национальная Библиотека, 2013**

# Tərtibçidən

Bu il Azərbaycan, SSRİ və Rusiyanın Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və iki dəfə Azərbaycan SSR Dövlət mükafatları laureatı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Tahir Salahovun anadan olmasının 85 ili tamam olur.

Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib olunmuş “Tahir Salahov” biblioqrafiyası rəssamın həyat və yaradıcılığı haqqında ilk biblioqrafik vəsaitdir.

Tahir Salahov irsini geniş oxucu kütləsinə çatdırmaq məqsədilə tərtib edilmiş biblioqrafiya rəssamın həyat və fəaliyyətinin 1963-cü ildən 2013-cü ilədək olan dövrünü əhatə edir. Burada Tahir Salahovun əsərlərinin kataloqu, dövri mətbuatda və məcmuələrdə çap edilmiş məqalələri, həyat və yaradıcılığı haqqında nəşr edilmiş materiallar toplanmışdır. Vəsait xronoloji prinsip üzrə, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır. Biblioqrafiya Azərbaycan və rus dillərində tərtib edilmişdir.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq üçün sonda Tahir Salahovun əsərlərinin və onun haqqında yazan müəlliflərin, sərlövhə üzrə təsvir edilən materialların əlifba göstəricisindən ibarət köməkçi aparat tərtib edilmişdir.

Vəsaitdə Tahir Salahovun həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, əsərlərinin kataloqu da öz əksini tapmışdır.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küçəsi 57.
E-mail: contact@anl.az; URL: www.anl.az

# От составителя

В этом году исполняется 85 лет со дня рождения народного художника СССР и России, Героя Социалистического Труда, лауреата Государственной премии СССР и дважды лауреата Государственной премии Азербайджана, вице-президента Российской Художественной Академии Таира Салахова.

В связи с юбилеем художника Азербайджанская Национальная Библиотека составила первый библиографический указатель, посвященный жизни и творчеству художника Таира Салахова.

В связи с целью пропаганды наследия Т.Т.Салахова составленная библиография охватывает периоды его деятельности с 1963 по 2013 гг. Здесь собраны его каталог произведений, статьи, опубликованные в периодической печати, литература о Таире Салахове. В библиографии материалы сгруппированы  по хронологии, а внутри - в алфавитном порядке. Библиография составлена на азербайджанском, русском языках.

С целью облегчения пользования составлен вспомогательный аппарат.

В библиографическом пособии нашли свое отражение основные даты жизни и деятельности Таира Салахова, высказывания выдающихся деятелей о нем, а также каталог его произведений.

Заранее выражаем признательность каждому специалисту и читателю в связи с пожеланиями и замечаниями данного указателя.

**Адрес:** AZ-1000, город Баку, улица Хагани, 57.
E-mail: contact@anl.az; URL: www.anl.az

# Görkəmli rəssamın rənglər dünyası

Tahir Salahov yaradıcılığı yalnız onun dünyaduyumunu deyil, həm də xarakterini, könül cizgilərini əks etdirir. O, dünyanı öz səs pərdəsində görür. Bu daxili səs pərdəsini o, demək olar ki, dərhal müəyyənləşdirmiş və dəyişməmişdir; dəyişsəydi, yəqin uzun zaman özü olaraq qalan, orijinal sənətkar Salahov kimi tanınmazdı.

"Rəssam anadangəlmə olur, ya dünyaya gələndən sonra formalaşır?" - tez-tez meydana çıxan bu suala həyat cavab verir ki, rəssamlıq Allah vergisi, kəramətidir. Nə bəxş edilmişsə, sonradan cilalanır. Salahovun misalında məhz belə olmuşdur.

Uşaqlığında baş verən hadisələr rəssamlıq peşəsini seçməyə heç də rəvac vermirdi. 1937-ci ildə atasını "xalq düşməni" damğası ilə həbs edib güllələdilər. Yalnız 1956-cı ildə bəraət verdilər. Anası beş balası ilə arxasız qaldı. Tahirin doqquz yaşı vardı. On beş yaşında, artıq müharibə gedəndə, məktəbi buraxmalı və Bakı su kəməri idarəsində nəzarətçi işinə düzəlməli oldu.

Rəssamlığa bəslədiyi həvəs, təhsilini davam etdirmək arzusu onu Bakı rəssamlıq məktəbinə gətirdi. Burada 1950-ci ildə təhsilini bitirib, Bədaye Akademiyasına - İ.Y.Repin adına Dövlət Rəssamlıq institutuna daxil olmaq arzusuyla Leninqrada yollanır.

Əsl çətinliklər daxil olan zaman da davam edirdi. İxtisas və ümumtəhsil fənləri üzrə qəbul imtahanlarını uğurla verəndən sonra onu kadrlar şöbəsinə çağırıb sənədlərini geri qaytarırlar - yaxşı qiymətlərlə verdiyi imtahan vərəqəsini, ərizəsini, anketi - tərcümeyi-halını. Atasının repressiyaya məruz qaldığı barədə Tahirin açıq ürəklə yazdığı sətirlərin altından qırmızı qələmlə xətt çəkilmişdi. Tahir acıya-acıya, göynəyə-göynəyə Neva sahilinə, qoşa sfinksin "donuxub" qaldığı tərəfə üz tutur.

Düşünüb-daşınır, özünü ələ alır. Öyrənir ki, Leninqrad Ali Sənaye Rəssamlıq məktəbində dördüncü kursda iki vakant yerə imtahanlar keçiriləcək (orada təhsil səkkiz il sürürdü). Həmin təhsil ocağına pənah gətirib, sənədləri təqdim etməzdən əvvəl o, rektorun qəbuluna gedir; atasının repressiyaya məruz qaldığını da qeyd etdiyi ərizəsini, anketini rektora göstərir. Rektor böyük mərdlik və lütfkarlıq göstərib deyir ki, abituriyent qəbul imtahanlarını versə, tələbələrə qoşulacaq. Tahir imtahanları verir. O dövrü görməmiş adamlar üçün tərcümeyi-halda belə bir "əmma"nın normal həyata, eləcə də istədiyin ixtisasa "qapıların bağlanması" demək olduğunu təsəvvür etmək, yəqin, çətindir. İncəsənət o dövrdə ideoloji sahə sayılırdı və buraya "şübhəli" anket sahibləri buraxılmırdı. Ali məktəbdə Salahov bir il oxudu; hərbi kafedra ilə bağlı baş vermiş fikir ixtilafına görə sənədlərini geri götürməli oldu və bir il sonra, 1951-ci ildə V.İ.Surikov adına Moskva rəssamlıq institutuna müvəffəqiyyətlə imtahanları verib, birinci kursa qəbul edildi.

Stalin hakimiyyətinin son illərində ideoloji təzyiqlər şiddətlənmişdi. Güman ki, artıq rəhbərin səyləri olmadan, ənənəvi olaraq, onun şüarı işə salınmışdı: yəni kommunizmə yaxınlaşdıqca sinfi düşmənin müqaviməti kəskinləşir. İncəsənət sahəsində ideologiya əsas etibarilə formalizmlə mübarizəyə tuşlanırdı. Moskva rəssamlıq institutundan S.Gerasimov, İ.Qrabar, V.Poçitalov kimi görkəmli müəllimlər kənarlaşdırılmışdı. Salahov instituta daxil olan dövrdə rektor Modorov idi. Müəllim əhatəsi mühafizəkar rektordan da betər idi. Onlardan biri - İ.Orlov haqqında tələbələr lətifələr qoşur, bu da kommunizmə doğru irəlilədikcə artan geniş "folklora" çevrilirdi. Bu lətifələr bir topluya yığılsa, həmin üzdəniraq müəllimin miskin siması, daha çox tələbələrin əhatə olunduğu qeyri-intellektual mühitin mənzərəsi görünərdi.

T.Salahov P.Pokarjevskinin emalatxanasına düşmüşdü; o öz əsərlərilə şan-şöhrət qazanmasa da, babat sənətkar idi və

rəngkarlıq sənətini anlatmağı, öyrətməyi bacarırdı. "Sərt üslub"un gələcəkdə formalaşmasında bilavasitə xidmət göstərəcək ondan yaşlı tələbə nəsli - V.İvanov, P.Ossovski, Q.Korjev və b. institutu Salahov daxil olduğu ildən bir il öncə bitirmişdilər. Onun tələbəlik mühiti bir qədər başqa idi. Və bu nəsil orta rəssamlıq məktəbini bitirmiş, Başqırdıstanda, Voskresenskoye kəndində evakuasiya məhrumiyyətlərini yaşamış rəssamlarla təmasda olmamışdı. Məhz adları çəkilən məzunlar, üstəlik İ.Popov, A.Tutunov, N.Andronov, V.Sidorov, I.Şevandronov, P.Nikonov, M.İvanov və başqaları "altmışıncılar"ın Moskva özəyini təşkil etmiş və həmin dəstə mühüm dərəcədə sovet incəsənətində yeni istiqamətləri müəyyənləşdirmişdi.

Salahovun oxuduğu kursun yay praktikasını bu ərəfədə Surikov institutunu bitirmiş D.Jilinski aparırdı. Sənətkarın yaradıcılığını anlamaq, duymaq, dərk etmək üçün, ilk növbədə onu əhatə edən mənəvi, psixoloji, sosial-siyasi və rəssamlıq mühiti nəzərə alınmalıdır. Belə olan halda novatorluq, plastik yeniliklər, onun yaşadığı dövrün bədii şərhinin nədən ibarət olduğu aydınlaşar. Senzura yasaqlarına, vərdiş edilmiş təsəvvürlərin ətalətini qırmağın çətinliyinə baxmayaraq, tənqid belə yerli-yataqlı qənaətlər hasil edə bilirdi. Məhz tənqid öz həyat fonu, ömrü ötmüş sənətlə mübarizə tarixi olan sənətkarın yaradıcılıq mahiyyətini, əsərlərinin ayrıntılarını sezib incələyir.

Sonrakı nəsillərə bir çox mətləblər başqa cür, tərəqqi fərz edilən yüksəklikdən görünsə də, bu tərəqqi çox vaxt əslində adi tənəzzüldür, cünki sənət pərvərişindən sonra adətən ötənlərdən daha yüksək sayılmaq iddiası meydana çıxır. Əslində, incəsənət müəyyən qanunauyğunluqla öz zəmanəsinin xüsusiyyətlərilə bağlı olur və bu zaman kəsiyindən kənara sıçramaq mümkün deyil. Bütün bu şərtləri ona görə xatırladırıq ki, Tahir Salahov yaradıcılığı həqiqət işığında tədqiq edilsin, yəni vaxtilə necə göründüyü, hansı maneələri aradan qaldırmalı olduğu və

keçmişin bu gün necə qavranıldığı bilinsin. Rəssamın hansı bədii təcrübədən çıxış etdiyi, bu təcrübəyə nələr əlavə etdiyi, keçmişdə nələrlə bəhrələndiyi aşkarlanmalıdır: çünki ənənənin qırılması sənətin süqutuna gətirib çıxara bilər. Sənətkarın hansı ənənədən faydalandıgı müəyyən edilməlidir, axı ənənələr fərqli, çoxsaylıdır və burada seçim gərəkdir. Salahov heç vaxt təsvir-ifadə başlanğıcından üz döndərməmiş, yaxın ya uzaq keçmişdən istifadəyə gəldikdə isə təcrübədən ən məqsədə-uyğun saydığını seçmişdir.

Tahir Salahovun "İş növbəsindən qayıdış" adlı diplom əsəri (1957) onu aparıcı sovet rəssamları sırasına çıxardı. Yaxşı rejissuralı və effektlə işlənmiş iri tablo yeni dünyabaxışına doğru yolun yarısı, yaxud başlanğıcı olduğunu xəbər verirdi. Tənqid bu tablonu şərh edərək, Deynekanın "Petroqradın müdafiəsi" əsərilə müəyyən kompozision səsləşməni qeyd etdi. Lakin bu üslub oxşarlığı mənaca heç də Deyneka əsərinin təkrarı deyildi. İkiqatlı kompozisiya: alt və üst səviyyəli estakadalar yalnız qarşı-qarşıya yönəlmiş hərəkəti vurğulasa da, başqa bir ovqatı, Deynekada olandan fərqli mənanı ifadə edirdi. Hərçənd "İş növbəsindən qayıdış" tablosunun energetikası irəliyə yönəlmiş fəal hərəkət, müqaviməti qırmaq (bu halda küləyin təpərini) əzmi bir çox baxımdan Deynekanın 1930-1940-cı illərdə yaratdığı əsərlərinin məqamlarıyla müqayisə edilə bilər. Salahov gənc neftçi nəslini "müzəffər qərinə" kimi təqdim etmişdi ki, bu da sosializm realizminin pafosuna cavab verirdi. Məhz bu səbəbdən əsəri yeni cərəyana aid etməyə əsas azdır. Bununla belə, "İş növbəsindən qayıdış" tablosunda rəssamın yaradıcılığında baş verəcək təbəddülatı sanki qabaqlayan təmkinli rənglər qamması aşkarlanmaqdadır. Amma bu bambaşqa Salahov - varlığı sərt baxış süzgəcindən keçirən üslubun banisi olacaq, elə bir üslubun ki, onun vasitəsilə həyat nə başdan-başa toy-bayram, nə də bədbinlik təlqin edən cansıxıcı görüntülərlə təqdim olunacaq.

Surikov adına institutu bitirdikdən sonra Salahov Bakıya gəlir, buradan yenə Moskvaya üz tutur və beləliklə, iki ocaqda məskən salmış olur; axı doğmaları - anası, qardaşları, bacıları Bakıda qalırdılar.

1958-ci ildə çəkdiyi "Səhər eşelonu" tamamilə başqa səpgidə işlənmişdi. Məhz bu əsər yeni üslubun yaranmasından xəbər verirdi. Bu üslub sanki lakonik vasitələrlə - müs-təvilər, konstruksiyalarla gerçəkləşirdi; lakin burada əsas olan çalarlı, refleksli rənglərin yığcam dili idi ki, struktur və boya vurğularıyla "danışır", heç bir artıq hərəkətə yol vermirdi. Bu dəfə kompozisiya hərəkətlərin qarşılaşması deyil, kəsişməsiylə qurulurdu: işıqlı şosse, üzərində neft sisternləri görünən qaranlıq körpü. Təsvirin quruluşu institutda öyrədildiyindən tamam fərqlidir. Forma, Deyneka və Nisskidə olduğu kimi, ümumiləşdirilmişdir. Bu da təsvirə monumental səciyyə aşılayır. Yarımtonlar görüntü (natura) gerçəkliyi təəssüratını yaradır. Lakin bəzi rənglər daha gur "səslənir". Müəllif burada boyaların vurğulanması üsulundan istifadə edir. Belə ki, bir sistern tutqun qırmızı işartı saçır, o biriləri kölgələnmiş, qaraltılar kimi açıq rəngli, yüngülcə cizgilənmiş açıq səma altında görünür. Beləliklə, ənənəvi mənada fon anlayışı yoxa çıxır. Qara, tünd müstəvidə qırmızının akkordları təsviri canlandıran, ona yaraşıqlı boya tənasübü gətirən rəssam tapıntısıdır və bu tapıntı sonralar gələcəkdə də xüsusi variantda işə yarayacaqdır ("Rezervuar parkı", "Neftçi", "Bəstəkar Qara Qarayevin portreti", "Fikrət Əmirovun portreti", "Kordovalı ispan" və s.). "Səhər eşelonu"nda Salahov yeni bir stilistika təqdim etdi və bədii baxımdan kamilləşərək, sanki sənətdaşlarını da öndəri izləməyə çağıran sonrakı əsərlərində bu stilistikanı davam etdirdi.

Yeni manera artıq Rusiya Rəssamlar Birliyinin ənənələrilə təsvir edilə bilməyəcək çağdaş həyat ritmlərinə uyğun idi. Hər şey mövzudan asılı idi. Salahov müasir sənaye inkişafının mövzularını və insanın yeni şəraitdə əhval-ruhiyyəsini əks et-

dirməyə çalışırdı. Bu, çox vacib məqamlar idi, çünki yalnız bu şərtlə yeni zamanın açıq, yaxud nəzərdə tutulan möhürünü daima daşıyan yeni obrazlar, xarakterlər, mənzərələr yaradıla bilərdi. Bu ovqat "Rezervuar parkı"nda (1959) və "Neftçi"də (1959) öz əksini tapmışdı.

Hər bir sənət əsəri ilk növbədə müəyyən yaşantıdır. Belə bir yaşantı "Rezervuar parkı"nda xüsusilə aydın görünür. Mənzərə dramatikdir. Bu təsvirin mənasını təbiətin sənaye tərəqqisi nəticəsində bərbad hala düşməsi, insana yer qalmaması kimi şərh etmək olar. Tutqun qamma, qanlı qürub fonunda rezervuarların cansız boz kubları və mənzərənin qırağına sıxışdırılmış qərib insan - bax, elə budur təklik-tənhalıq ovqatının özü. Amma burada vacib cəhət odur ki, rəssam yalnız motivi yaşamır, həm də onu mənalandırır. Bir həyati situasiyanı, bəlkə də hadisəni, münasib ifadə vasitələri taparaq, sənət əsərinə çevirir. Bu tablo təsadüfi təsvir deyil, bizim dramatik varlığımızın dramatik ifadəsidir. Salahovun belə tezliklə obrazlı, həm də fəlsəfi təfəkkürə plastik təkrarsızlıqla yiyələnməsi heyrət doğurur. Burada xüsusi qeyd etməliyik ki, həyatın bu günümüzdən boylanan "işıqlı istiqbalının" uzun sürən təmtəraqlı tərənnümündən sonra Salahov öz sənətdaşları nəslindən dünyamıza yana-yana, acıya-acıya nəzər salan ilk rəssam oldu. Tabloda yalnız ekoloji problem qaldırılmır, bu problem cansıxıcı insan yaşamı, insanı "udan" neftli-mazutlu mühitlə müqayisədə ikinci dərəcəli kimi görünür.

Salahovun rənglər düzümündə elə bil milli koloritə riayət olunurdu: qara neft, qızmar qumsal torpaq. Belə qamma nə ona müasir olan çağdaş azəri rəssamlığında, nə də rus rəngkarlığında müşahidə olunmamışdı. Sovet dövründə sənətdə milli özünəməxsusluq alqışlanırdı, lakin bu özünəməxsusluğu görüb sənət dililə çatdırmaq gərək idi. Salahov buna nail oldu. Həm də sürətlə. Hər il hansısa bir yenilik gətirir, 1958 və 1959-cu illər ovqat baxımından daban-dabana zidd olan mənzərə-peyzaj

yanaşmalarıyla: "Səhər eşelonu"nda nikbin və "Rezervuar parkı"nda açıq-aşkar faciəvi əhvalla yadda qalır. Bu əsərlərdə insan kimliyi bilinmədən iştirak edirdi, varlığı daha çox ovqatı, dünyaduyumu ilə bildirilirdi. Lakin elə həmin 1959-cu ildə insan idrakın başlıca mövzusuna çevrilir. Beləliklə, "Neftçi" tablosu yaranır. Bu əsər bir çox cəhətdən novatorcasına işlənsə də, ardınca çəkilən və populyarlıq qazanmış "Bəstəkar Qara Qarayevin portreti" (1960) müqabilində bir qədər "kölgədə" qalır. Halbuki "Neftçi" Salahovun plastik özgürlüyünü cəmləşdirmişdi. Rəssam akademik kompozisiya sxemində rənglər nisbətini tarazlaşdıran ənənəvi koloritdən və deməli, obrazın "normativ" quruluşundan imtina edir. Yuxarıdan və soldan çatılmış təsvirdə neftçinin sifəti sanki çətinliklə formata sığır. Belə vasitə ilə yaradılan təəssürat obrazı monumentallaşdırır, sanballaşdırır. Personajın sifəti mürəkkəb boya uzlaşmasıyla izlənsə də, ümumi kolorit, qarabuğdayı boya üstünlüyü gözlənilmişdir. Peyzaj tünd, neft rəngindədir. Və burada obrazı zənginləşdirən metafora olmasa da, məcazi eyham sezilir. Sanki tünd soyuq qammanı pozaraq, qırmızı müştük təsvirin boya həllini hərarətli akkordla isindirir. Rəngkarlıqda bunca tünd, qatı və eyni zamanda təsirli rənglər qammasına hələ rast gəlinməmişdir.

Sirayətedici, həm də sanki nagüman baxışlı, sərt təbiətli neftçi ümumiləşdirilmiş insan obrazı kimi canlanır və milli tipajın müəyyən səciyyəvi keyfiyyətlərini daşıyır. 1920-1930-cu illərdən bəri sənətdə belə bir obraz - məğrur zəhmət adamının rəmzi surəti görünməmişdir. Bu obrazda sosializm realizmi stilistikasına xas olan bəzək-düzək yoxdur. Əksinə, öz sərt həqiqiliyilə bu obraz insanın bədii şərhindən tamamilə başqa bir istiqaməti gerçəkləşdirir. Burada alışdığımız şad-xürrəm zərbəçi, sosializm yarışının qalibi obrazından əsər-əlamət yoxdur. İnsan tamamilə başqa cürə baxılır, bərkə-boşa düşmüş, "çörəyi daşdan çıxan", halal zəhmət adamı görünür və onun

məziyyəti də bundadır. "Neftçi" müəyyən mənada zamanın spesifik ifadəsidir. Tabloda çoxsaylı ayrıntılarla cilalanan, vurğulanan fabula, təhkiyə yoxdur. Burada hər şey yığcamdır, asketik rənglərin diliylə nəql edilmiş hekayət öz-özlüyündə gərginlik daşıyır, məhz bu ovqat zamanın qavramı üçün səciyyəvi hal kimi kətan üzərində canlanır. Obyektiv, ümumi başlanğıc fərdi başlanğıcla qaynayıb-qarışaraq lazımi bədii effekt yaradır.

Tahir Salahov incəsənətdə yeni təfəkkür irəli sürənlərdən biri olmuş və bu yeni sənət dayaz nikbinlik qavramından imtina etməklə yanaşı, xüsusi plastik sistem təklif etmişdir ki, burada süjet ikinci plana çəkilərək, öz əhəmiyyətini itirmiş və özünəməxsus bədii çözümlə əvəz olunmuşdur. Rəng bütün çoxsaylı çalarlarıyla təsvir vasitəsinin başlıca bədii amili rolunu öz üzərinə götürürdü. 1958-1959-cu illərdə sovet rəssamları içərisində varlığın bədii təcəssümünə, eləcə də zaman üçün səciyyəvi mövzu seçiminə yeni yanaşmalar axtaran sənətkarlar tək-tək idi. 1960-cı və sonrakı illərdə incəsənət aləmində yenilikçilər dalğası bir vəlvələ saldı. Hələlik gerçəkliyə yeni bir münasibət, yeni bədii təfəkkür tərzinin ilk cəhdlərini qeyd etmək olar və bu cəhdləri novator şövqüylə irəliyə can atan, əvvəlki dövrün müəyyən sənətkar dairəsinin təcrübəsini təkrarlamadan yaradıcı yolla yararlanan cavan rəssamlar göstərirdilər. Eyni zamanda lakonik ifadə vasitələri dünyaya qeyri-ənənəvi nəzər salmağa, tanış olanların, alışdığımızın mahiyyətinə varmağa sövq edirdi. 1960-cı il dönüş mərhələsi oldu və bu zaman sənət meydanına yeni bədii çözümlərlə rəssamlar dəstəsi atıldı. Bu gəlişməyə bir qədər öncə təkan verən Salahov həmin ildə ən yaxşı əsərlərindən birini – "Bəstəkar Qara Qarayevin portreti"ni təqdim etmişdi.

Sovet incəsənətində onun əhəmiyyətini açıqlamazdan əvvəl gənc rəngkarlıq nəslinin yaradıcılığında özünü aşkar göstərən, onların dünyagörüşlərində baş verən irəliləyiş üzərində

dayanaq. 1950-1960-cı illər dönəmində inqilabi patetika sona yetdi, varlığa yanlış baxım nüfuzdan düşdü. Rəssamlar real həyata üz tutaraq, ona vərdiş etdikləri bər-bəzək vurmaqdan uzaqlaşdılar. Onlardan İ.Popov, V.Stojarov, A.və S.Tkaçovlar, V.Qavrilov, A.Tutunov, E.Braqovski ənənəvi təhkiyə formasında əyalətə, kəndə, qədim mədəniyyət ocaqlarına, köhnə şəhərlərə müraciət edərək, onları milli özgürlük qaynaqları kimi təqdim etdilər.

Bu rəssamlar altmışıncı illərə fərqli yollarla qədəm qoyurdular. Bir qismi, yuxarıda adlarını çəkdiyimiz sənətkarlar kimi, Rusiya Rəssamlar İttifaqının ənənələrinə, rus realizminə üz tuturdu. Salahov isə sonralar “sərt üslub” adlanacaq cərəyana aid edilmiş və onun “Bəstəkar Qara Qarayevin portreti” bu üslubun klassik təzahürü kimi dəyərləndirilmişdir. Həqiqətən də bu əsər yenilikçi məziyyətləri daşıyır, hərçənd “Qara Qarayevin portreti” onun başladığı yolun, mövzunun, orijinal maneranın davamı, inkişafı idi və həmin manera daha geniş “yeni üslub” anlamının tərkib hissəsi sayılmışdır; bununla belə üslubun şərhində yekdillik yox idi. Bəziləri “Kərpicxallı valet”in, bəziləri A.Deynekanın, P.Korinin, A.Drevinin təcrübəsindən bəhrələnir, üçüncü qisim isə başqa qaynaqlara istinad edirdi. “Bəstəkar Qara Qarayevin portreti” hər şeydən əvvəl, möhkəm ölçülüb-biçilmiş rəsmlə əlamətdardır. Bu “rəsm özülü” kompozisiyada sanki rənglərin “donuna” məhəl qoymadan çıxış edir. Bəstəkar əyləşmiş vəziyyətdə təsvir edilir və bu cəhət kompozisiyaya statiklik gətirməli idi. Lakin bu yoxdur. Şəkil enerjilidir, dinamikdir. Enerji iki qaynaqdan nəşət tapır: biri zahiri təsvirdən, o birisi isə Qara Qarayevin keçirdiyi daxili, mənəvi gərginlik ovqatından sezilir. Bu ovqat onun bir-birinə ilişdirilmiş əllərindən, iradəli sifətindən, dalğın, düşüncəli görkəmindən duyulur və bəstəkar, portretlərdə çox hallarda olduğu kimi, əsla “poza” saxlayan şəxs təsiri bağışlamır. Və bu enerjinin gözəgörünməz dalğası soldan sağa yönəlmişdir. Bu

"dalğa" həmin səmtə üz tutan bəstəkarı da özüylə çəkir. Sol tərəfdən royalın dayanıqlığı (dirənmiş ayağı ilə) və əks istiqamətə doğru royal müstəvisinin qarşısıalınmaz hərəkəti sanki kətandan da o yana davam edir. Rənglər də böyük önəm daşıyır və dinamikdir, ağ (bəstəkarın sviteri) və qara (royal) arasında təzad üzərində qurulmuşdur. Boyalar xəsis görünür, heç bir çalarla yüklənmir. Lakin əslində belə deyil. Rəng lakonizmi daima xallarla səsləşir. Sol tərəfdə dəftərin qırmızı yeləni qara royalla həmahəngdir. Qırmızı-qaranın toqquşma effektini eynilə Deyneka "Yeni sexlərin inşaatında" (1926) əsərində işlətmişdir. Ağ sviter firuzəyi yarımtonlarla çalarlanır. Şalvar yasəməni, göy, bənövşəyi çalarların mürəkkəb uzlaşmasıyla işlənib. Hətta divar da royal kimi kəskin boya silsiləsilə "canlanır" və onun çilalı səthində ətrafdakı əşyaların rəngləri iz buraxır. Sanki məkan başdan-başa müxtəlif səmtli hərəkət ovqatındadır, lakin bu arada bir dinamik tarazlaşma da yaranır. Belə ki, royalın sol tərəfdəki ayağı diaqonal üzrə yuxarıda haşiyələnmiş rəsmin ucuyla tarazlaşdırılır. Bütün bu texniki fəndlər hərəkətin əylədilməsi, cilovlanması təsiri bağışlayır, beləliklə də əlavə olaraq kompozision gərginlik yaradır.

Bu önəmli təfsilatlar göstərir ki, Salahov kətana sadəcə modelin öz vizual müşahidəsini köçürmür, obrazı bədii vasitələrlə formalaşdırır, beləliklə, bədii effekt alınır, yəni hadisənin mahiyyəti estetik yozumunu tapır.

Qara Qarayevin - bir bəstəkar kimi, intellektual kimi – portreti yeni dövrü təmsil edən insan obrazıdır. Onun timsalında xəyalımızda Stalin dövründən sonra ölkənin mənəvi ab-havasını, əsasən olmasa da, mühüm dərəcədə müəyyənləşdirmiş incəsənət, elm, maarif xadimləri, ziyalı kəhkəşanı canlanır. İnsana yeni yaradıcı münasibətlə, keçmişdə "formalizm" adlana biləcək stilistikası ilə Salahov sənət dəyərləri haqqında mühafizəkar təsəvvürlərə meydan oxuyurdu. Bununla belə, həmişə oldugu kimi, dəyərlər meydanında qarşıdurma əvvəlki pozitiv,

mənəvi, bədii, stilistik dəyərlərdən bəhrələnməyi istisna etmirdi. Varislik prinsipi üzrə bədii irsdən faydalanaraq, rəssam dünyanın estetik qavranılmasında yeni üfüqlər fəth edirdi.

Həmin 1960-cı ildə çəkdiyi "Təmirçilər"də Salahov zəhmət adamı mövzusunu davam etdirir. Qayıqla iş yerinə yollanan təmirçilər müxtəlif psixoloji ovqatlarda görünürlər. Tablonun ümumi ahəngi yetərincə tutqundur. Sağdakı fəhlə gödəkçəsinə bürünüb küləyin həmləsindən qorunur, soldakı qaşqabaqlı baxışlarını sanki potensial seyrçiyə, yaxud müsahibinə zilləyib. Təmirçilərin təsviri patetikadan uzaqdır, rəssam bundan qəti  imtina edir. Elə görünə bilər ki, ətraf mühitə bunca "qaraqabaq" münasibət bəsləməyə ehtiyac yoxdur, lakin bu yaşam, bu iş-güc təmirçilərə heç də sevinc gətirmir, eləcə də qayıqla keçdikləri yol da xoş gəzintiyə oxşamır. Tutqun rənglər düzümü fəhlələrin nigaran, dalğın, qayğılı əhvalı ilə səsləşir. "Təmirçilər"də açıq-aşkar göstərilir ki, fəhlə əməyi quruculuq zövqü, fərəhi yox, ağır zərurətdir. Yaxınlaşan yer üzərində ağaran üfüqlər heç də ümid müjdəsi, fəhlələrin əhvalını açacaq bir gözlənti deyil, sərt reallıqdır.

Beləliklə, sənət aləminə bəzədilməmiş həqiqət daxil olur. Kommunizmin müasir qurucularının qəhrəmanlıq ovqatı sovuşub harasa gedir; onu ağır, yeknəsəq yaşam əvəz edir və yaxşılaşmağa güman yeri də qoymur. Salahovun əsəri onun müşahidə etdiyi cəmiyyətin, bütövlükdə olmasa da, neftçilərin timsalında mənəvi durumuna, varlığın dərkinə həsr olunmuşdur, bununla belə yeni tipajın meydana çıxması və təkrarsız plastik təcəssümü ilə bağlıdır. Yeni üslubun metafora kimi anlaşılan sərtliyi eyni dərəcədə yeni obrazlara və rəngkarlıq manerasına şamil edilir və bu manera həm mənaca, həm təsvircə, cansıxıcı demək olmasa da, pafossuz varlığın durumunu əks etdirirdi. Buna baxmayaraq, obrazlar monumental təsir bağışlayır. Onlar ümumi cizgilərlə, təfsilata varmadan qranitdən yonulmuş fiqurları xatırladır. Lakin sənət monumentallaşdırma

vasitələrindən faydalanaraq, öz yoluyla gedir. Detalları, məsələn, fəhlələrin çəkmələrini, cod geyimlərini, əl-qollarını iriləşdirir, sifətlərini zəhmli göstərir, bütün bunlar mətin xarakterlərdən xəbər verir və surətlərə inandırıcı sanballılıq aşılayır. Detallara diqqət yetirilməsi, onların irimiqyaslı göstərilməsi çəkilişin ümumi ruhuna zidd deyil; mənzərə, incə ayrıntılara xırdalanmadan, gen-bol müstəvilərlə həll edilir. Salahov gözəl rəsm ustası olaraq özünə sadiqdir. Təsvir qüsursuz, sərrast rəsmlə cizgilənmiş, kolorit isə ağır səslənməyə meyllidir. Təsvir vasitələri  personajların sərt şərhi, kəskin boya uzlaşmalarıyla işlənmiş iri formalarda təzahür edən bir yeni gözəllik kəsb edir.

Zəhmət adamı mövzusu, onun durumu və bir növ ictimai statusu haqqında təəssürat “Xəzərin sahilində” (1967) əsərində öz əksini tapmışdır. Sahildə dincələn bir balıqçı təsvir olunmuşdur. Təsvirin iri formaları, rəngkarlıq manerası “Təmirçilər”də olduğu kimidir. Şəkildə gərginlik ovqatı olmasa da, tipaj və zəhmət adamının şərhi “Təmirçilər”in personajları ilə səsləşir. Peyzaj müşayiəti - təlatümlü dəniz, ləpədöyən zolağıyla azca ağardılmış, ümumən tünd kolorit - yorğun balıqçının əhvalıyla səsləşərək, daha çox prozaik ruhlu bir dram təsiri bağışlayır.

Salahovun altmışıncı illərə aid bir çox əsərlərində insanlar nigaran intizar hissi keçirirlər. “Abşeron qadınları”nda (1967) analar və gəlinlər dəniz sahilində oğullarının və ərlərinin yolunu gözləyirlər. “Yeni dəniz”də (1970) bənd üstündə duran fəhlələr yeni dənizə gur suların sürətlə axmasını izləyirlər. Birinci əsərdə nigarançılıq qadınların pozalarında, sərt xətlərlə cizgilənmiş sahilyanı qumların pərakəndə naxışlarında sezdirilir. Kompozisiya ənənəvi deyil - qadınlar diaqonal üzrə aritmik tərzdə şəkilin aşağı küncündən yuxarısına doğru düzülmüşlər,  balaca oğlan və qız başqa diaqonal üstə yer tutmuşlar. Bu da təsvirin vurğularını tarazlaşdırır. Lakin qadınların da-

ğınıq səfindən yaranan qırıq xətt, onların nigaran duruşu, donuxmuş sifətləri həyəcanlı intizarı bildirir. Bir başdan o biri başa xəyalən xətt çəkilsə, bu xəttin əyri-üyrülüyü qadınların narahatlığının çırpıntılı “kardioqram”ı təsiri bağışlayır. Salahov tablolarındakı əvvəlki təmkinli enerjini burada zahiri statika, durğunluq əvəz edir. Alabəzək geyimləri, qırmızı, bənövşəyi, ağ, göy, müxtəlif çalarlı rəngləri dekorativ naxış kimi qəbul etmək olar, amma əslində onlar rəng ansamblının tarazlığını pozur və narahatlıq motivinə qatılırlar. “Yeni dəniz”də öz əməyinin bəhrəsini görən əməkçilərin təmkinli fərəhi daha ekspressivdir. Fəhlə dəstələri kükrəyən, coşan suları iti çivlər kimi yararaq, siluetlərin təzadını yaradır. Kompozisiyanın enerjisinə baxmayaraq, seyrçilərə sarı çevrilmiş fiqurlar duruxmuş halda, lal intizar içindədir. Bu ziddiyyət fəhlə geyimlərinin soluxmuş rəngi altında gizlənən daxili gərginliyi üzə çıxarır. Təsvirdən göründüyü kimi, rəssam künc-bucağı da boş qoymaq istəmir, onları müəyyən süjet məzmunu ilə yükləməyə çalışır.

Salahov yaradıcılığını münasib dövrün ideologiyası ilə tutuşdurmalı oluruq. Yalnız bu müqayisə nəticəsində aşkarlanır ki, hansı məqamlarda ənənə gözlənmiş, hansı cəhətlərdə novatorluq meydana çıxmışdır. Rəsmi ideologiya baxımından “Abşeron qadınları” mütləq optimizm tələblərinə cavab vermirdi. Ona görə də vaxtilə layiqincə diqqət hədəfi olmadı, bununla belə, Dövlət Tretyakov Qalereyasında yer tuta bildi. “Sosialist optimizmi”nin olmaması varlığın qavranılmasında doğru yola aparırdı. Başqa sözlə, Salahov yaradıcılığında yeni keyfiyyətli, italyan kino neorealizminə çox bənzəyən realizm üzə çıxırdı. Bu yeni realizm həyatı önəmli cəhətlərlə göstərirdi. Eyni zamanda, rəngkarlıq vasitələrindən istifadə edərək, rəssam fotoqrafik oxşatma yoluna varmırdı. Onun təsvir dili lakonik və sərt idi. Və bu cəhət müraciət etdiyi hər hansı janrda həyatın bədii qavramını səciyyələndirirdi.

1960-1970-ci illərin üslub axarında bir çox gözlənilməz hallar baş verirdi. Fərdi təsvir maneraları o qədər yeni çözüm ortaya çıxardı ki, eyni maneralardan formalaşmış kimi görünən və aydın cizgilənən “sərt üslub” daxilində xeyli uyğunsuzluqlar nəzərə çarpırdı. Bir il ərzində müxtəlif bədii məzmun, məna, o cümlədən üslubca fərqlənən əsərlər meydana çıxırdı. Belə ki, N.Andronovun “Quraşdırıcılar”ı onun özünün nikbin ovqatlı “Salsürənlər”indən Salahovun eyni adlı, zaman etibarilə yaxın “Quraşdırıcılar”ına daha çox oxşayır. Andronov manera baxımından Konçalovskinin duzlu-şirəli rəngkarlığına, Salahov isə Deyneka lakonizminə meylli idi. Buna baxmayaraq, “Meksika korridası” (1969) Konçalovskinin “Öküz döyüşü”nün həm mənaca, həm də üslubca bir növ variantı kimidir.

“Meksika korridası”nda rəssam acıq-aşkar formanı qabardır. Bu süjet üç yarımdairə - öküzün beli, toreadorun əyilmiş fiquru və meydanın yarımdairəsi vasitəsilə “qapayan” qeyri-adi kompozisiya sayəsində üzə çıxır. Rəng lakonizmi son həddə çatır, qara-qırmızının qarşılaşması isə faciəvi mənaya gətirib çıxarır. Adətən Salahovun kompozisiyalarında ekspressiya gizli qalaraq, özünü açıq göstərmir; burada isə o, bütünlüklə göz qabağındadır - dəbərən öküz belinin cizgilənməsində, toreadorun bükülü fiqurunda, fitə tutulmuş matadorun sıçrayışında nəzərə çarpır. Nadir hallarda təzahür edən belə bir "formalizmi" rəssam gələcək üçün qənimət bilərək sınaqdan keçirir. Ümumiyyətlə, Salahov üçün hərəkət ekspressiyası deyil, üstüörtülü gərginlik səciyyəvidir; rəssam onu üzə çıxmağa qoymasa da, sezdirir. Təsviri sənətdə buna necə nail olmağın anlaşılması rəssamın şəxsi tapıntısı və kəşfidir. Bu nəticəyə incəsənət tarixində başqa sənətkarların da müvəffəq olmalarına baxmayaraq, hər birisində bu, özünəməxsus tərzdə alınırdı. Salahovun variantı isə məxsusidir. Gördüyümüz kimi, bu səpki “Bəstəkar Qara Qarayevin portreti” ilə başlanmış və 1960-1970-ci illərdə davam etdirilmişdir. Bəstəkar “Fikrət Əmirovun portreti”ndə

(1967) musiqiçi tamaşaçıya üz tutmuşdur. Güman etmək olardı ki, belə frontal vəziyyətdə tamaşaçıyla üz-üzə qarşılaşan bəstəkar daxilən açılmalıdır. Lakin o, aləminə qapanmış görünür. Bu, bilərəkdən edilmişdi; qırmızı-qara təzadında, bəstəkarın gərgin pozasında hansısa dramatik olay, yaxud dramatik yaşantı duyulur.

"Şair Sabirin portreti"ndə (1962) insan şəxsiyyəti daha aydın görünür, "Rəsul Rzanın portreti"ndə isə (1971) daxili gərginlik vurğulanır. Burada şair sanki iri əlləriylə stula söykənərək, irəliyə yönəlmiş fiqurunu tarazlaşdırmağa çalışır. Və yenə də bu qarşı-qarşıya yönələn qüvvələr daxili təlatümdən xəbər verir və Rəsul Rza xarakterini açıqlayır. Salahovun sərt, kəskin cizgili rəngkarlığı formal əlamətlərilə deyil, hər dəfə təsvir edilən motivə uyğun olduğuna görə müasirdir. Hərdən elə gəlir ki, rəssam qəsdən öz manerasına uyğun ola biləcək portret xarakterləri seçir. "Bəstəkar Dmitri Şostakoviçin portreti"nə (1974-1976) baxanda da bu təəssürat səni tərk etmir. Portretin ovqatı rəssamın bütün əvvəlki portretlərindən fərqlənir; burada yorğun, üzgün gözlərindən dramatik sarsıntı, gərginlik oxunan solğun sifətli, dərin fikrə getmiş bir insan təsvir edilib, ona görə də enerji duyulmur. Rənglərin düzümü daxili mücadilədən xəbər verir. Qara royal ağaran köynəklə təzad yaradır, qırmızımtıl oturacaqla, yaşımtıl cemper və bozumtul göy rəngli şalvar süst çalarları "səsləndirir". Rənglərin əvvəlki enerjisi səngiyir. Rəsm konstruksiyası soluxur. Bu da təsadüfi deyil. Bəstəkarın faciəvi obrazı bunu tələb edirdi. Portretdə real şəxsiyyətə oxşarlıqla yanaşı, insanı sıxan, əzən zəmanənin havası duyulur. Obraz sanki portret çərçivəsindən çıxaraq, bir növ istedad taleyinin rəmzinə çevrilir. Əllərə xüsusi diqqət yetirilib. Nazik barmaqlar Rəsul Rzada olduğu kimi müqavimət əzmi ifadə etmir, onlar boşalmış, təpərsiz, bəstəkarın bükülmüş qaməti kimi heysizdir.

Bəstəkarın həmin 1974-1976-cı illərdə yaratdığı başqa təsviri – "D.Şostakoviçin portreti" adətən diqqətdən kənarda qalır. Bəstəkar profildən, pəncərə önündə oturmuş vəziyyətdə çəkilmişdir; pəncərədən qaralan ağacların ritmik səfləri, yerdə ağaran qar görünür. Qış gününün soyuq işığı baxışını bir məchul nöqtəyə zilləmiş Şostakoviçin, hərəkətsiz bir fiqurun üzərinə düşür. Bu baxış hərəkətsiz, öz aləminə qapanmış fiqurla təzad təşkil edir. Statika və dinamika ziddiyyətindən bir insan təkliyi, qəribliyi anlaşılır. Daima öz fikir aləminə qapılan dahinin "tərkidünyalığı"nı Salahov parlaqcasına ifadə edə bilmişdir.

1960-1970-ci illərin portretlər silsiləsi belə bir dramatik sonluqla bitir. Bu silsilə, görünür, mədəniyyət xadimlərinin xarakterlərinə, mənəvi mahiyyətinə nüfuz etmək məqsədini izləyirdi. Bu müxtəlif şəxsiyyətlərin taleyinə yaşadıqları dövrün hansı "möhür" qoyduğu hiss olunur. 1980-ci illərin astanasında enerjili, əzmkar insan mövzusu səngiyir. Qüdrətli sənətkarı adətən fərqləndirən nələrdir? Özünəməxsus rəngkarlıq manerası, onun təsvir dilimi? Salahovun sərt, təpərli manerası onu sənətdaşları sırasında dərhal tanıtdırır. Lakin təsvir dili fikirsiz olmur. Salahov dünyanı öz baxımından mənalandırır, plastikası kimi öz orijinal mülahizələrini izhar edir. Və bu fikir-təsvir vəhdəti bütöv bir bədii effekt yaradır, intellektual özgürlük orijinal formada işıqlandırılır. 1980-1990-cı illərdə başqa dövr başlayır və onun yaradıcılığından intellektualları, rəssamları, bəstəkarları az qala tamamilə "sıxışdırır", sadə zəhmət adamlarının vəsfi də tədricən tükənir. Elə bir dönəm başlayır ki, Salahov bir qədər özünü itirmiş kimi hiss edir, bununla belə yeni mövzular, yeni obrazlar tapır. Rəssamın taleyində bu, çox məsul proses idi.

Lakin burada Salahov yaradıcılığının erkən çağlarına qayıtmalı, guya ikinci dərəcəli görünən işlərinə nəzər salmalıyıq. Hələ diplom işində "cücərmiş" nikbin meyl sonralar inkişaf etdirilmiş və nəinki sadə əşyalar aləminə, ümumən varlığa

şamil edilən həyatsevər dünyaduyumuna çevrilmişdi. Bu tendensiya əsasən natürmort janrına aiddir. “Pəncərə. Moskvanın səhəri” (1959) - Salahovun ilk natürmortlarından biri olub çox orijinal qurulmuşdu. Pəncərə şüşəsinin arxasında günəş işığına qərq olmuş şəhər görünür. Lakin pəncərənin bir tayı azca bulanıqdır. Yəqin sayrışan işıqdandır. Pəncərənin qarşısındakı bankadan “boylanan” rəngarəng fırçalar tutqun şüşənin fonunda cırtlayan çiçəklər kimi görünür. Nəticədə eyni mənzərəyə iki baxış, iki duyum ortaya çıxır. Sol tərəfdən görüntüyə gələn şəhər mənzərəsi daha parlaq konkret ayrıntılarla, naturaya uyğun təsvir olunmuşdur. Sağdan isə solğun, soyuq, yekrəngdir, sanki solda görünənin antipodudur. Lakin hər iki dünya fərəhli ovqat hüdudlarından kənara çıxmır. Bu natürmortda arxa planın predmetləri müstəvi üzərində qabardılmasa da, anlaşılmaz bir tərzdə fəza dərinliyi, duyumu saxlanılır.

“Qladioluslar” natürmortu tamam başqa məna daşıyır. Qırmızı qladioluslar kölgələnmiş, standart və buna görə də darıxdırıcı təsir doğuran beşmərtəbəli bina fonunda görünür. Kompozisiya bu təzadlı mənalar üzərində qurulur. Təzad bir başqa məna çalarıyla da vurğulanır: kontrajurla işıqlandırılmış, çiçək açmış qladioluslar daşlı quyu kimi dar həyətin fonunda həyat rəmzi kimi canlanırlar. Gün düşmüş pəncərə sürahisi, güllərin saralan saplaqları və al qönçələri sanki bir büsatın, həyat nəşəsinin görüntüsüdür.

1960-1970-ci illərdə Salahov natürmorta, həmçinin portret və peyzaja üstünlük verir, 1980 və 1990-cı illərədək onun üçün cazibədarlığın saxlayan bu janrlara meyl göstərir. Tematik, başqa təbirlə desək, məişət, sosial, əmək mövzusu ikinci plana çəkilir, ya az qala yox olur. Yenidənqurma dövrünün ideyaları münbit zəmin ola bilmir. Bu ideyaların pafosu neftçilərin nəcabəti, insaniyyəti, yaxud incəsənət xadimlərinin yüksək mənəviyyatı ilə müqayisə edilə bilməz. Sənət xadimləri Salahovun diqqətini cəlb etməkdədirlər. Fəhlələrə gəldikdə, yeni dövranın,

biznes dövrünün zəhmət adamlarına münasibəti bambaşqadır. Fəhlə sinfi artıq çoxdandır ki, proletariat deyil, yəni ictimai dəyişikliklərin aparıcı qüvvəsi, sosial tərəqqinin mühərriki deyil. Rəssam adilikdən qeyri-adilikləri ayırıb arıtlamağa, bu qeyri-adilikdə təsvir predmetinin mənasını vurğulamağa və rənglərin təzadı vasitəsilə ən fərqli bədii şərhlərə yol açmağa çalışır.

Bu baxımdan altmışıncı illərin birinci yarısına aid peyzaj işləri təqdirəlayiqdir. Əksəriyyəti xarici səfərlərin bəhrəsidir. Amma Azərbaycan motivləri də az deyil və önəmlidir. “Torpaq” (1969) tablosunda neft hopmuş kimi qara görünən təpələrin arasıyla əngin, enişli-yoxuşlu torpaqla müqayisədə balaca bir traktor sürünür, al qürub şüalarında sanki alışıb yanır. Al-qara rənglərin bunca qatı, matəmsayağı qovuşması sayəsində mənzərə yer üzünün intəhasızlığı və buənginliklərdə itib-batan traktorun tənhalığını hiss etdirir. Bu duyğu yalnız rənglə deyil, kompozisiya vasitəsilə də təlqin edilir, burada traktor - əsas “iştirakçı” kimi, insan yaşantılarının kondensatoru, rəmzi rolunu oynayır. Dramatik ovqat qırmızı qürub işartılarıyla azca isidilmiş qara təpələrin üzərində ağaran üfüq zolağını da sovuşdura bilmir.

Rəngi vurğulamaq rəssamın prinsipinə çevrilir və bu yolla o, süjetin emosional təsirini artırır. Təhkiyə üsulu lakonik süjet hərəkətilə əvəz edilir və burada əsas məqsəd rənglər təzadıyla açılan ucsuz-bucaqsız məkanın əzəmətini göstərməkdir. Salahovun əsərləri kompozisiya düşüncələrini genişləndirir, əvvəllər bu anlam əsərin daxili strukturunu müəyyənləşdirən konkret quruluşu, ifadə vasitələrinin seçimi və ardıcıl tətbiqi çərçivəsində düşünülürdü. Çağdaş incəsənətdə kompozisiya bir sıra hallarda ümumən qəbul edilmiş qaydaları pozmaqla, əvvəl nəzərə alınmayan yeni konstruktiv ünsürlərin qatılmasıyla qurulur. Salahov da təzadlı kompozisiyaları, struktur ünsürlərin müəyyən sıralanmasını və s. nəzərdə tutur. Təzad obrazın ifa-

dəliliyini gücləndirir. Nəhəng torpaq məkanında balaca traktor bir cücü kimi görünür. Lakin onun rəngi və paradoksal görünsə də, ölçüsü işaran üfüqlərdən, qaralan təpələrdən daha çox diqqəti cəlb edir, ətrafdakı ayrıntılar isə onu müşayiət edən kimi görünür. Bu halda təzadlı müqayisə gur səslənən rənglər nisbəti və "iştirak edənlərin" -Traktor və əngin torpaq - ölçü nisbəti olmadan baş tutmazdı.

Salahov kompozisiya ritmlərindən də vaz keçmir. "Kolizey gecə vaxtı" (1964) əsərində Kolizeyin qara divarları müqabilində qırmızı közərtili pəncərə boşluqlarının ritmləri arxitektura ahəngi ilə uyğunlaşmır. Pauzalar əslində aritmikdir, bu da mənzərəyə nigarançılıq ovqatı aşılayır; biçimli közərtilər bu təəssüratı gücləndirərək ekspressiv coşqu hissi doğurur, eyni zamanda insan sanki peyzajı tərk edir. Bu da səbəbsiz deyil. Müasir sivilizasiyanın bol-bol törətdiyi cansız-qansız qurğular insanı sıxışdırır və ona elə bil yer də tapılmır.

"Abşeron motivi" (1963) buna misal ola bilər. Qupquru, yanıxmış torpaq üzərində boylanan qırmızı və qara külək mühərrikləri sərrast çəkilsə də, qəsdən durğun, cansız göstərilir. Hər halda rəssam ölçü duyumunu da itirmir. Hətta mənzərənin belə bəsitləşməsi, yarımtonlardan istifadə edilməməsi də özünəməxsus gözəllik yaradır. Rənglər bir-biriylə qarşılaşdırılır: ağ qarayla, qara qırmızıyla. Çəhrayı səma təzadı yumşaldır. Bəlkə də əbəs yerə Salahov hər dəfə naturanın ardınca getmir. O, naturadan təkan alaraq, onu başqalaşdırmaq yoluyla təsirli-ifadəli nəticə almağa çalışır. Bu məqamda rəng fakturasının rolu nəzərəçarpacaq dərəcədə artır.

"Eyfel qülləsi" mənzərəsində qatı boya yaxmaları qaralan axşam səmasına xüsusi ekspressiya gətirir. Rəssamın xoşladığı təzad - qürub şöləsində qızaran qüllə qaralan göylər fonunda rənglərin yaratdığı məna təzadlarını vurğulayır. Aralanmış dayaqlarını yerə dirəmiş qüllə sanki canlandırılır, "insaniləşdirilir". Onun kəlləsində yanan iki projektor div gözləri kimi qa-

ranlıqda közərir. Bu isə artıq birbaşa təsvir yox, metaforadır. Metaforik fikir tərzindən Salahov daima faydalanacaq, metafora daha poetik vasitədir və buradan simvolik obrazlılığa birbaşa yol açılır.

Adları çəkilən əsərlərlə gah təzad təşkil edən, gah da həmahəng səslənən iki akvarel seriyası: "Çexoslovakiya səyahəti" (1961) və 1964-cü ildə italyan seriyası yaradılmışdır. Xatırladaq ki, bu dövrdə SSRİ-dən xarici səfərə çıxmaq çox əngəlləşdirilmişdi. Bir qayda olaraq, vətəndaşın xaricə buraxılmasına icazə vardısa, ilk səfəri hökmən xalq demokratiyası ölkəsinə olmalı və yalnız bunlardan sonra o, kapitalizm aləminə buraxıla bilərdi. Sənətkar rəssam üçün xarici səfərlər xüsusilə zəruri idi. Belə səfərlər dünya bədaye irsilə, çağdaş incəsənətlə bilavasitə və daha ətraflı tanışlıq imkanı yaradırdı və SSRİ-nin xarici aləmdən təъrid olduğu bir şəraitdə bu imkanlar müəyyən üstünlük verirdi.

"Çexoslovakiya səyahəti" silsiləsindən "Vltavada səhər" (1961) üslub və məna baxımından diqqəti cəlb edir. Şəkilin zərif, sarı-qızılı çalarları həzin lirik ovqat yaradır. Heç bir təzadın olmaması, rənglərin qeyri-adi "xəsisliyi" mənzərəni olduqca emosional və təsirli edir. Rəssam naturadan çıxış edir və bütünlüklə onun cazibəsi altında qalır. Bununla belə o, təbiəti fotoqrafik tərzdə təkrarlamaqdan uzaq olaraq, açılan sabahın, ləngərlə axan azman çayın seyrindən doğan yaşantılarını, duyğularını təsvirə qatır.

Roma Salahovun təsvirində tamamilə başqa bir tərzdə görüntüyə gəlir. Bir çox rəssamlar qədim şəhərin əsas əlamətdar abidələrini, yerlərini göstərməyə çalışırdılar. Salahov bu təsvir rakursundan da vaz keçmir. "omada Müqəddəs Pyotr meydanı" (1964) bu qəbildəndir. Seçilən mənzərə monumental kilsə ilə birgə ahəngdar memarlıq kompozisiyası olmuşdur. Salahov bu gerçəklikdən çıxış edərək, təsvirə öz emosional təəssüratını qatmalı idi. Şəkil solğun göyümtül boyalarla işlən-

mişdir və bu, perspektivə səmavi yüngüllük aşılayır. Kilsənin portalı qabardılmadan, müstəvilik gözlənməklə çəkilib, hərçənd memar Bramante özü də bu niyyəti izləmişdir. Və rəssamlıq obrazının belə müstəviliklə qurulması ardıcıl olaraq meydanın hamar qat kimi çəkilməsilə, səmanın yekrəngliyilə yerinə yetirilmişdir.

Salahovun əsərlərində daima sərrast işlənmə heyrətləndirir. O, bir ya da bir neçə yaxımla predmetlərin həcmi, rəngi və yaxın-uzaqlığından asılı olaraq, böyük-kiçikliyi haqqında təsəvvür yaradır, əlavə dəqiqləşdirmə tələb etmədən bütöv görüntünü fəhmən duyur. Müqəddəs Pyotr meydanı onun ifadəsində insanı öz miqyasları ilə sıxmayan ruh yüngüllüyü və səmavi havacat təlqin edir. "İtalyan silsiləsi" bütövlükdə diqqətəlayiq bir özəlliyə malikdir. Roma, Florensiya və Venetsiya peyzajları əsasən prozaik həyatdan qaynaqlanır. Bu, heç bir mübarək əlaməti olmayan, bəzən həyət-bacada asılmış pal-paltar gözə dəyən şəhər guşələri ("Roma məhəlləsi", 1964), ya memarlıq gözəlliyilə göz qamaşdırmayan köhnə məhəllələr ("Roma. Tiberino adası", 1964), ya qayıqların yan aldığı körpü ("Venetsiya qondolaları", 1964), yaxud binalar arasındakı dar keçiddə gözlənilmədən peyda olmuş daxma ("Venetsiya", 1964), ya da Florensiyanın dar küçələrində bir tin ("Florensiya. Ponte-Vekkio körpüsü səmtində", 1964) və sairədir. Lakin ulu şəhərlərin prozaik fraqmentləri rəssamın məharəti, həm də şəhər simasının vacib cizgilərini göstərən adi yaşayışın özgür ruhunun duyulması sayəsində böyük sənət səviyyəsinə yüksəlir.

"Venetsiya" rəsmində hər şey parlaq, dolğun rənglidir. Qırmızı boya ağla gözəl haşiyələnərək, intensiv rəng qovşağı yaradır. Şəkildə süst rəng yoxdur. Rəng daxili enerji daşıyır, o fəaldır. Məsələ yalnız yaxımda, çalarlarda, ya boya fakturunda deyil, rəngin öz gözəlliyindədir. Kompozisiya, qırmızı evə yönələn məkanı daraldaraq, diqqəti ona tuşlandırır. Bu tablo

gələcək Salahovun xüsusilə sonrakı Venetsiya mənzərələrində özünü göstərən "rənglər tüğyanı"ndan xəbər verir.

Keçmişdə, xüsusən XIX əsrin təsviri sənətində əlavə tonlar geniş yayılmışdı: soyuq boyalar ilıq rəngləri qabardaraq, predmetin həcmi haqqında təsəvvür yaradırdı. Qırmızı rəngi "səsləndirmək" üçün Salahov əvvəllər neytral sayılan ağ rəngdən faydalanır. Və məhz rənglər spektrindən kənarlaşdırılan bu yeni uzlaşma qırmızı ilə təzad yaradır, boya nisbətlərinin yeni estetikasından xəbər verir. Bu məqamda "acıq rəng" vacib önəm daşıyır və həmin anlamı rəngin faktur xassələrinin istifadəsi kimi açıqlamaq daha dəqiq olar. Qatı ağ rəng şəkildəki binanı başdan-ayağa naxışlayır, həm qırmızıyla, həm də qarayla nisbətini fəallaşdırır, qatı və ya məsaməli fakturlu rəngin tətbiqinə yeni münasibət ortaya qoyur. Boyalara faktur-pastoz baxımından yanaşma müəyyən dərəcədə V.Stojarovun Venetsiya peyzajlarında sezilir (1959). Lakin burada boyalar rəngkarlıq səciyyəsini müəyyənləşdirə biləcək səviyyəyə çatmamışdır. Salahovda bu təbəddülat baş tutmuş, lakin açıq-aşkar, güzəştsiz şəkildə deyil, bədii effektin ölçüsündən asılı olaraq, bir üsulun o birisilə uzlaşdırılması yoluyla təzahür etmişdir.

Altmışıncı illərin ortalarınadək Salahov rəngkarlıq dövriyyəsinə saysız-hesabsız boyalama fəndləri, rəng uzlaşmaları, rövnəqləndirmə variantları daxil etmişdir ki, bunlar müasir rəngkarlıq anlamını müəyyənləşdirmişdir. Yeni rəngkarlıq sistemini intellektual sənətin zəruri şərti sayılan məna qatlarını nəzərdən qaçırmayan dünyaduyumu çərçivəsində anlamaq olardı. Sual doğur ki, bu təzələnmə əsnasında predmetsiz yaradıcılığın "xalis" rəngkarlıq sistemindən iqtibaslar baş verirdimi? Əgər bu var idisə, çox cüzi dərəcədə olurdu. Öz təcrübəsini rəngkarlıq plastikası sahəsində eksperiment kimi görən avanqard sənətin iddiaları, yəqin ki, əsassızdır. Altmışıncı illərin predmet incəsənətinin "eksperimenti" öz qaynaqlarından bəhrələnirdi. O, 1910-1930-cu illərin predmetçilərindən təkan alırdı.

Rəngkarlıq isə özünüinkişaf prinsipilə çoxşaxəli yollarla inkişaf edir və zaman ötdükcə çeşidli yeniliklər üst-üstə qalaqlanırdı. Bu prinsip rəssamın Amerika silsiləsində xüsusi aydınlıqla nəzərə çarpır ("Amerika səyahəti" seriyası). Sanki Salahovun arxasında Deyneka durubmuş. Onun təsiri aşkar idi, lakin eləcə də Salahov üslubunun özgürlüyü də şəksizdir. İnsanları sıxışdıran cansız göydələnlər, ağlasığmaz memarlıq nəhəngləri fərqli yozumlara yer qoymurdu. "Çikaqo göydələnləri" (1965) bu baxımdan əlamətdardır. Binanın şaquli cizgiləri daşlardan hörülmüş quyu təsəvvürü yaradır və bu quyunun dibində buz meydançası yerləşir. Tənha idmançı bu "daş qəfəsdə" itib-batmış yeganə canlı məxluqdur. Soyuq rənglər qammasını ağaran göylərin görüntüsü isidə bilmir. Ayaqlarına dəmir sürüşkəclər taxmış idmançı idman məşqlərini deyil, müəyyən ovqatı ifadə edir. Kiçik fiqurun nəhəng binalarla müqayisəsindən doğan ağır tənhalıq duyğusu müqabilində hərəkət səngiyir, heçə dönür.

1960-1970-ci illərdə çəkilmiş Azərbaycan peyzajları tamamilə başqa təəssürat yaradır. Milli səciyyə onlara xüsusi "tam" gətirir, Şərq diyarının koloritini duydurur, cünki Salahov bilərəkdən bir növ "mədəni irs" mövzusunu seçir ki, burada yalnız xalqın məişət tərzi deyil, daha çox mənəvi yaşamı izlənir. Bu rəsmlərdən ən önəmlisi, yəqin ki, "Bakı. Şirvanşahlar sarayı"dır (1966). Bu əsərdə və ardınca gələn mənzərələrdə Salahov kubizm təcrübəsinə üz tutur, bu da qədim azəri memarlığının məhz Salahov baxımından özünəməxsus yozumunu ortaya çıxarır. Rəssam milli memarlıq abidələrinin kubsayağı tutumlarından çıxış edərək, onları bəsitləşdirir və təsviri istədiyi konstruktiv aydınlığa gətirib çatdırır. Bu baxım "kublaşdırılmış" binaların işıqlandırılan və kölgələnən hissələri arasında təzad üzərində qurulur, ağaclar isə yarıyuvarlaq şəklə salınır. Beləliklə, öz aydınlığı və statikliyi ilə nəzərə çarpan kubik formaların sərrast ritmi yaradılır. Saray tikililərinin kompleksi

isə arxeoloji qazıntılardan sonra dəyişilməz halda qalan yurd yeri kimi görünür. Tərk edilmiş, həyat nəfəsi qalmamış yurd mənzərəsi sübut edir ki, rəssam obrazın əsası kimi bu məkanın, muzey durumunda olsa da, müasir varlığını yox, saray kompleksinin məhz plastik konstruksiyasını götürür və kublardan qurulmuş kimi təqdim edir. Rənglər düzümü qrafik tərzə yaxınlaşır və işıqlandırmadan asılı olaraq, bir-biriylə qovuşan ikicə rəngdən ibarət olur.

Başqa bir təsirli əsər – "Köhnə Şamaxı" (1973) - şəhərin kubsayağı quruluşunu daha bariz şəkildə nəzərə çatdırır. Ön plan bu ideyanı aydın edir. İkinci plan "kubları" müəyyən ritmlərlə bir-birini əvəz edən və üçüncü plana uzanıb gedən müstəvilərə çevirir və arxa planda ucalan tünd - qəhvəyi dağlar işıqlı, ağ donlu şəhərlə təzad yaradır, həm də mənzərəyə monumental əzəmətlilik verir. Şamaxının bədii şərhi "Şirvanşahlar sarayı"nda olduğu kimidir. Bu mənzərə də tərk edilmiş yaxud yuxuya qərq olmuş şəhər təsiri bağışlayır.

Məkanın "planlarla" qurulması bizi sanki köhnə klassik üsluba qaytarır. Lakin bu təsəvvürü təzə-tər rəngkarlıq sovuşdurur, yeni-yeni fərqli boya ritmləri məkan və rəng sorumlarına müasir baxımdan xəbər verir. Natura duyumu itirilmədən eynilə kubistik planda "Köhnə Bakı" (1977) və xüsusilə naturadan çəkilmiş, qumsal torpağın, gildən yapılmış binanın fiziki gerçəkliyini duyduran "Köhnə Abşeron hamamı"nda (1978) da qurulmuşdu. Eyni səpgidə işlənən "Köhnə Ramana" (1975), "Nardaranda küçə" (1978), "İspaniya. Kordova" (1975), "Nardaranda məscid" (1978), "Qranada. Damlar" (1978) yeni bədii yanaşmanın və obrazın müxtəlif görüntüləridir. Bəlkə də buna görə Salahova şəhər peyzajlarının, A.Venetsianovun təbirincə desək, "diriləşdirilməsi" lazım deyil. Bu səbəbdən onun peyzajlarında tənhalıq, tərki-dünyalıq ovqatı yaşayır və rəssama çağdaş yaşayışdan ayrılmaq üçün bir xəyali məkan kimi görünür. Həm də Abşeron mənzərələrinin həzin və mülayim

dalğınlığında rəssamın doğma yerlərlə bağlı xatirələri, uşaqlıqdan alışdığı aləm ilkin rəngləri mənalandırmasıyla dilə gəlir.

Sovet İttifaqının dağılmasıyla incəsənətin dəyərləndirmə meyarları dəyişməyə başladı. Sabiq “formalistlər” tamamilə təbii olaraq öz haqlarını tələb etdilər. Əvvəllər tanınmış, ünlü sənətdaşlara münasibət kəskin surətdə dəyişirdi. Sovet keçmişindən, o cümlədən sovet sənətinin irsindən yerli-dibli imtina etmək meyli açıq-aşkar meydana çıxırdı. Tədricən özlərini “yenilikçi” adlandıranların arasında belə bir fikir yaranırdı ki, incəsənət nəinki formaca, həm də mahiyyətcə dəyişməlidir. İncəsənətin tükənməsi və onun “mədəni önəmli hadisə” ilə əvəz olunması təklifi irəli sürülürdü. Belə bir şəraitdə Salahovun əsərlərində bədbinlik hiss olunmur. Lakin tamamilə aydındır ki, rəssam ən azı on il öncə yaxınlaşan tarixi dövrlərin dəyişməsini duymuşdu. Çal-çağırlı, “optimist” mövzu vicdanlı sənətkarları artıq cəlb edə bilməzdi. Salahov hələ 1970-ci illərin sonlarından əvvəlki sərt pafosu sanki unudur və adi predmetlər aləminə, dağılan dünyada öz insaniyyətini qoruyub saxlayan adamlara üz tutur. Lakin yaxınlaşan sosial fəlakətlərin “yeraltı təkanları” rəssamı öncə görüntüyə gətirdiyi görkəmli zəka sahiblərini (portretlərdə), fədakar əməkçiləri vəsf etdiyi böyük sənət əsərlərindən ayırdı. Bu dövrdə Salahov janrların yerlərini yenidən sıraladı. 1985-ci ilədək portret və süjetli şəkil bərabər yer tuturdu. Doxsanıncı illərdə portret aparıcı rol oynamağa başladı. Doğrudur, əvvəllər portret süjetli şəklə də çevrilməyə meylli idi, yaxud sənət adamından sonra fəhlə-neftçi obrazına cevrilə bilərdi. İndi isə portret incəsənət xadimlərindən daha çox başqa xarakterlərə, şəxsiyyətin tamam başqa keyfiyyətlərinə diqqət yetirdi.

Paralel olaraq, Salahovun natürmort sahəsində yaradıcılığı inkişaf edirdi. Bu janr da öz simasını dəyişirdi. Həmin dəyişmələr, yəqin ki, saxsı kuzələrlə çəkdiyi natürmort silsiləsindən başlanırdı. Bu əsərlər yuxarıda xatırlatdığımız “Pəncərə. Mos-

kvanın səhəri” və “Qladioluslar”dan tam fərqli səciyyə daşıyır. Birinci halda predmetlər vasitəsilə qavranılan şəhər mühitinə və daha geniş mənada - varlığa həyatsevər münasibət, həyat nəşəsi duyulursa, ikinci halda ilk növbədə predmet mühitini, forma gözəlliyini, saxsı kuzələri süsləndirən rənglər coşqusunu, işıq axarının nikbin qavramının vəsfini görürük. İşıq yuvarlaq kuzələrin “nazıyla oynayır”. Kuzələrin bir qismi yan tərəfdən, o biriləri kontrajur üsuluyla işıqlandırılır. Hər iki halda kuzələrin boğazları son dərəcə dəqiq forma gözəlliyini aşkarlayan rəvanlıqla işlənmişdir (“Günəşli səhər”, 1978, “Qırmızı bibərlə natürmort”, 1977, “Abşeronda səhər”, (1984). İnteryer dişarıya sarı çevrilmiş və iki janr şərhinin bu cür qovuşması şəkillərə insan nəfəsini, istisini gətirir. İnteryer əhatəli natürmort rəssam üçün sox maraqlı mövzudur. Belə halda həmin incə görkəmli kuzələr bir-birinə, belə ifadə işlətmək mümkündürsə, mərdanə koloritlə çulğalanaraq, diqqəti cəlb edir. “Saxsı kuzələrlə natürmort” (1978), “Kuzələrlə natürmort” (1969), “Qırmızı çıraqla natürmort” (1981) və “Narlarla natürmort” (1969), altmışıncı illərin əvvəllərində yaradılan nurəvşan natürmortların davamıdır. Yəqin ki, Salahov o zaman arabir Sezanna göz qoyaraq, öz manerasını cilalayırmış və sonralar eyni tematika, erkən dəst-xəttin nahamarlığını, bəsitliyini arxada qoyaraq, tam üslub müstəqilliyilə öz əksini tapmışdır (“Armudlarla natürmort, 1997).

1960-ci illərdə bizim tamaşaçıları Morandinin natürmortları məftun etmişdi. Rəssam A.Nikiç həmin illərdə saxsı qablarla çəkdiyi natürmortlarla alternativ təklif etdi. Bundan da əvvəl R.Falk rəngli şüşə qablardan düzlənmiş gözəl natürmortlar yaratmışdı. Onun “Nəğməkar butulkalar”ı (1916) sanki dilə gələn rənglərin havacatı ilə heyrət doğurur. Daha sonra, 1956-cı ildə nəfis işlənmiş “Şorba kasası” yaradılır. Rus rəssamlığında saxsı və şüşə qablarla natürmort təsvirlərinin özünəməxsus və gözəl təcrübəsi yarandı. Hər bir rəssam xüsusi

ovqatı, yüksək bədii məziyyətləri, parlaq manerası ilə fərqlənirdi və bu əsərlərin müqabilində Morandi solğun görünürdi. Salahov natürmortlarına gəldikdə, predmetlər aləminin yüksək plastik təcəssümünü, sonrakı əsərlərində izlənə biləcək üslub təkamülünü qeyd etməliyik. Ətraf aləmin gözəlliyini aşkarlayan Salahovun nələrə üstünlük verdiyini görürük. Çoxsaylı natürmortlar sırasında "Mart buketi" (2002) diqqəti cəlb edir. Burada rəssamın qüsursuz zövqü özünü göstərməkdədir. Qara rənglə kölgələnmiş qırmızı güllər, ağ qönçələr, tünd yaşıl yarpaqlarla sanki səsləşən real gözəllikləri nümayiş etdirir və bu bədii paralellik rənglərin ağayana, təmkinli nisbətilə fərqlənir.

Adətən sənətkarın məhsuldar yaradıcılıq dövrü təxminən iyirmi il davam edir. Daha sonralar elə gəlir ki, onun istedadı zəifləyir və uçuşunda əvvəlki zirvələrə çata bilmir. Rəssamların əksəriyyətilə belə hallar baş verir. Əsas səbəb ondadır ki, sənətkarın öz əsərlərində bəsirətlə, öncədən gördüyü dövran ötüb keçir. Yeni zaman, yeni dövran çətin mənimsənilir. Lakin məharət qalır, hətta cilalanır da. Peyzaj çəkən rəssamlar üçün gərdişi-dövranın dəyişməsi böyük önəm daşımır. Lakin tematik əsərlərin inkişafı əngəlləşir. Yeni mövzular meydana çıxsa da, çətin qavranılır. Səbəb çox vaxt sənətkar ruhunun, şövqünün zəifliyində yox, zamanın dəyişməsində, düşüncələrin çaxnaşmasında, köhnə dəyərlərin rədd edilməsində, yeni dəyərlər isə yetişmədiyindən müəyyən tənəzzülün baş verməsindədir. İncəsənətə sirayət etmiş iki inqilab dövrü - 1917-ci və 1990-cı illər göstərdi ki, təsviri sənət "novator"lar tərəfindən köhnəlmiş elan edilir, lazımsız yük kimi kənara atılır. Ən yaxşı hallarda mücərrəd işləmələrlə əvəz edilir, ondan betər hallarda incəsənətə heç bir dəxli olmayan əşyalar istehsalı meydana çıxır. Belə şəraitdə təsviri sənət ideya, mövzu baxımından çaşdırılır, üstəlik öz təbiətinə xilaf çıxmağı tələb edən siyasi təzyiqə məruz qalır və bu təzyiqdən çətinliklə yaxa qurtara bilir. Əslində, bu sarsıntılar heç də təsviri sənətin tarixi səhnəni tərk etməsi de-

mək deyil. Bir çox sənətkarlar predmet və hətta natura formalarında uğurla çalışmağa davam edirlər. Tematik şəkillərdə öz əqidə və ideyalarına çıxış yolu tapırlar. Lakin aydındır ki, belə dağıdıcı, məhvedici dönəmlərdə sənət daxili mühacirətə çəkilməli olur.

Salahov heç vaxt tənqidi ruhlu sənətkar olmamışdır. Onun yaradıcılığı varlığın bayağılığını, eybəcərliklərini ifşa etməyə tuşlanmayıb. O, varlıqda gözəllik aramışdır. Bu axtarılan gözəlliyin real alınması, təbəddülatla verilməsi isə - başqa məsələdir. 1990-cı illərdə o, insan rəzalətinə, məkrinə, xəyanətinə, mütiliyinə, qorxaqlığına dəlalət edən vəziyyətlərlə qarşılaşanda, bütün bunlardan göynəsə də, fırçaya əl atmadı. Biznes kralları, siyasi impotentlər, oğrusayaq gəda-güda onun əsərlərinin qəhrəmanları ola bilməzdilər. Salahov həyatda hələ qorunub qalmış gözəlliyə üz tutdu. Beləliklə də cazibədar qadın surətləri və incəsənət xadimlərinin yaddaqalan portretləri yaradıldı. Onların sırasında surətə xüsusi qadın lətafətini aşılayan zərif ağ boya çalarlarıyla işlənmiş “Çılpaq Rəna”nı (1989) qeyd edək. Az qala monoxrom, yekrəng çəkiliş tündqəhvəyi çalarlarla təzad yaradaraq, çılpaq naturanın ağappaq bədənini nəzərə çarpdırır. Rənanın incə ədayla əyilən başı və şəklin qırağına qədər dalğalanan şəvə saçları obraza xüsusi orijinallıq gətirir. Bu dövrdə Salahov model seçərkən yalnız zahiri gözəlliyilə cəlb edənləri deyil, həm də könül açıqlığı, sadəlövhlüyü ilə fərqlənən (“Fatyanın portreti” və “Vladanın portreti” - 1989), yaxud “Varvaranın məktubla portreti”ndə (1997) olduğu kimi, qadın cazibədarlığı və diqqətcilliyini ifadə edən xanım-xatınları bədii görüntüyə gətirir. Burada təsvir özü-özünə deyil, portreti çəkilənlərin təbiətini açıqlamağa yönəldilir. Rəssam lazımi ton düzümünü seçir və bu seçimdə əvvəl başqalaşdırıb göstərdiyi naturaya da qayıdır (“Qadın portreti”, 1984, “Uzanmış çılpaq qadın”, 1984). O, çox vaxt xalis gözəl-

liyə aludə olaraq, gur rənglər işlədir və bu gurluq alabəzəklik kimi görünmür ("Olya Rukavişnikovanın portreti", 1998).

Dekorativliyə meyl kimi sayıla biləcək bu təsəvvür "Mstislav Rostropoviçin portreti" ilə (2000) sovuşdurulmuşdur. Bu əsər, belə demək mümkünsə, böyük musiqiçilər silsiləsinə daxil olaraq, Salahov üçün gözlənilməz plastik metodologiyası ilə fərqlənir. Rostropoviç orkestrlə çalır. Onun düzgün-dürüst seçilmiş pozası, azca dikəldilmiş çənəsi, sifətinin iti cizgiləri obraza müəyyən fərdi səciyyəvilik verir. Bu portretində rəssam təsvirin ritmləşdirilməsi yoluyla gedir. Bu niyyət müstəvilərin ritmini burğulayan püpitrlərin ahəngdar təkrarlanmasından bilinir. Musiqiçinin kəskin tərpənişi, iti xətlərlə cizgilənən fiquru sanki püpirtlərin ritmini təkrarlayaraq, təsvirin forma xüsusiyyətlərini vurğulayır. Salahovun alışdığı formalardan, özünün işləyib cilaladığı manerasından aralanmaq niyyəti anlaşılandır. Bu portret "Meksika korridası"na, onun vaxtilə inkişaf etdirilməmiş və tarixdə nadir epizod kimi qalmış stilistikasının bir növ qayıdışıdır. Eyni zamanda Salahov özü üçün əvvəlki dəsti-xəttinin yeni rəngkarlıq davamlarını açır. Onun təsviri rənglənmə baxımından fəallaşır, boyalar intensivləşir, gurlaşır və 1970-1980-ci illərdəki bəzi əsərlərinin qrafikliyini, daha dəqiq desək, ənənəvi anlamdan milli kolorit gözlənməsindən irəli gələn məqamları aradan qaldırır. "İtaliyanı gəzərkən" seriyası "Mstislav Rostropoviçin portreti"nə alternativ timsalındadır. 1999-cu ildə çəkilmiş "Terminus" otelinin eyvanın"dan görüntü - müxtəlif nöqtələrdən çəkilmiş iki mənzərə Rostropoviç portretinin "quru" ritmlərilə "bəhsə girişir", rəngləmə həllində isə onu üstələyir. Belə rənglər enerjisi optimizm ovqata və real mənzərənin emosional qavranmasına "kökləyirdi". 1980-1990-cı illərdə Salahov yaradıcılığında təşəkkül tapmış üslubun müəyyənləşməsində rəssamın rəngləmə yenilikləri Rostropoviç portretinin ritmik təsvirçiliyindən az önəm daşımamışdı.

"Venetsiya. "Terminus" otelinin pəncərədən görüntü" (1999) tablosunda bir məqam uyğunsuzluq kimi görünə bilər. Yaxın plan qabarıq, relyefli, duzlu-şirəli çəkildiyi halda, aralıqdakı qayıqlar-qondolalar bir qədər uşaqsayağı, bəsit, burunları diklənmiş vəziyyətdə təsvir edilmişdir. Onların bağlandığı dirəklər bircə yaxımla cizgilənmişdir. Lakin belə üslub "ixtilafı" Venetsiya mənzərəsinə fantaziyalılıq ünsürü, canlı fəza, işıq, hava duyumu gətirir. Görünür, Salahov ilk natürmortlarında, "Qladioluslar"da, "Pəncərə. Moskvanın səhəri"ndə açıq səslənən həyatsevərlik, işıqlı yaşam ovqatına qayıdır. Forma və rəngin bir qədər sadələşdirilməsinə gedərək, rəssam bu gedişin quruluşca zəruriliyindən daha çox məkanın işıqlı qavramında, şəffaflığında, rənglərin bayramlaşmasında gərəkliyini fəhmən duyurdu. O, erkən əsərlərində "cücərən" üsuldan - interyerdən eşiyə, küçəyə, havaya baxım üsulundan yenidən istifadə edir. Belə kompozisiyon çözüm davamlı və məhsuldar olmuşdur.

Portret janrını nəzərdən keçirərək, orijinal rəngkarlıq çözümlərinə, xüsusən heyrətamiz zahiri oxşarlıqla və portreti çəkilənlərin xarakterlərinin mahiyyətinə varmaqla fərqlənən qrafik portretlərə diqqət yetirilməlidir. "Maksimilian Şellin portreti" (1990) Salahova xas olan tünd rənglənmələrdən xalidir. Monoxrom qamma sərbəst pozada oturub, sınayıcı baxışlarla tamaşaçını süzən artistin, intellektualın obrazını yaratmağa mane olmur, əksinə, yarıyır. Bu yekrəng qamma Şellin qədd-qamətinə, sifətinə xüsusi yaraşıq verir.

R.Rauşenberqin iki portreti də maraqlıdır. Birində - "R.Rauşenberqin portreti"ndə (1990) müəllifin palitranı və daha geniş mənada rəngkarlıq üslubunu qəti surətdə təzələmək meyli duyulur. Rauşenberqin bəbəkləri göy, qızartılı gözləri, tünc rəngli sifəti, iti cizgilənmiş burnu, ağzı, üzünün qırışları bir hindu görkəmini xatırladır. Salahov üçün qeyri-adi çəkilişi "R.Rauşenberqlə görüş"də (1990) təkrarən müşahidə edirik.

Triptixin mərkəzində Rauşenberqin fiquru, sağında, solunda - əsərləridir. Aydın olur ki, Salahov portreti Rauşenberqin yaradıcılıq üslubunda çəkərək, amerikalı həmkarının surətini yaratmaqla onun xarakterini bildirən öz rəngkarlıq dəst-xəttindən yararlanmağa çalışır.

Portretlərində əks etdirdiyi şəxsiyyətlərdə Salahov ilk növbədə onların insani keyfiyyətlərini açıqlamağa cəhd göstərir. Bu fikir tam mənada "A.Qalperin portreti"nə şamil edilə bilər, - söhbət ömrü boyu SSRI Rəssamlar İttifaqında hüquqşünas-məsləhətçi vəzifəsində çalışmış, xeyirxah, rəhmdil, haqsevər bir insandan gedir. Hamıya kömək etməyə hazır olan Qalper istiqanlı ülfət ovqatını təmsil edirdi. Ömrünün son illərində o, pensiyaya çıxmış, alışdığı mühitdən ayrı düşmüşdü. SSRI Rəssamlar İttifaqının dağılması ilə onun ünsiyyət dairəsi də daralmış, tənhalıq qəlbini sıxmışdı. Salahov onu ömrünün bu sıxıntılı, kədərli dövründə çəkmişdi; dərdli olsa da, qocaman insan bu fani dünyanı sakit, təmkinli baxışlarla seyr edir. Portret işıqlı, sərin boyalarla, rəssamın öz dostuna canyanğısıyla işlənib və əfsuslar olsun ki, belə vəfalı dostların sırası illər ötdükcə seyrəlir. Bu təəssüf A.Qalperin portretində də sezilir. Bu əsər Salahovu səciyyələndirən bir cəhətlə də diqqətəlayiqdir. Onun portretlər qalereyasında bir sıra parlaq sənətkarlarla görünməsi elə güman doğura bilər ki, onlarla öz yaxınlığını nümayiş etdirir. Qalper isə bu məşhurlar cərgəsindən aralı qalır. Lakin adi sayıla biləcək bir insanla dostluğun özü sübut edir ki, Salahov üçün Qalperin təbiətində və portretində ən dəyərli cəhət insaniyyətpərvərlikdir. Və bu məziyyət onda rəğbətlə canyandıranlıq doğurur. Xatırladaq ki, uzun illər şəkər xəstəliyindən əziyyət çəkən Qalper ömrünün axırında əlil olmuş və bütün vaxtını evdən çıxmadan əlil arabasında keçirmişdir. Salahov da onu bu vəziyyətdə təsvir etmişdir.

Rəsmlər Salahov yaradıcılığında xüsusi yer tutur. Onlar çox xarakterikdir. Bu keyfiyyətlər haradasa satirik və real təs-

vir arasındadır. Həmin məkanda rəssam şəxsiyyətin xarakterini kəskinləşdirərək, qabardaraq, karikaturluğa varmır. Rəsmlər sanki bildirilmədən, altdan-altdan, iclas zamanı və istirahətdə çəkilmişdir, ona görə də çəkilən adamlar, yoldaşları bilərəkdən poza saxlamamışlar. Salahov hansısa əlamətdar cəhəti seçərək, onu nəzərə çatdırırdı. Bəzən bir baxış, gözlərin ifadəsi, dodaqların və ya burnun görüntüsü bəs edirdi. Qələmlə çəkdiyi "Seretelinin portreti"ndə (1992) Salahov heykəltaraşın yarıyumulu göz qapaqlarına "ilişmiş" və onun xarakterinə əlavəyə ehtiyac qalmamışdır. "O.Komovun portreti"ndə (1992) ifadəli gözlər, burun, dodaqlar portretin müstəsna dəqiqliyini təmin etmək üçün kifayət edir. Heykəltaraş Azqurun (1993), yazıcı Maqsud İbrahimbəyovun (1985), şair Rəsul Həmzətovun (1978) portret rəsmləri daha müfəssəl işlənmişdi. Belə çalışmalardan boyalı portretlər yaranırdı.

1980-ci illərdən başlayaraq, Salahov portret, natürmort, peyzaj janrları ilə kifayətlənir. Böyük tematik tablolar əsla gözə dəymir, sanki həyat o qədər maraqsızlaşmış ki, ondan heç bir diqqətəlayiq təsvir əxz etmək olmurmuş. 2002-ci ildə "Roma. "Qreko" kafesi" yarandı. Bu mövzu V.İvanov tərəfindən sınaqdan keçirilmişdi ("Qreko kafesi"). Beş sovet rəssamının güzarı düşdüyü bu kafedə vaxtilə rus fırça ustaları görüşərmiş və bundan savayi N.Qoqol da bura təşrif buyurarmış. V.İvanov öz ünlü sələflərini yad edirmiş kimi Rusiya sənətdaşlarını görüntüyə gətirir. Salahov isə başqa yanaşma təqdim edir: Roma cəmiyyətinin varlı, imkanlı olmayan təbəqəsinə diqqət yetirir və müştərilərin dincəldiyi kafedə hökm sürən sükunəti və darıxdırıcı ovqatı göstərir. Bu əsərin başlıca cəhətini təfəkkürün dəyişməsində görmək olar: burada müəyyən təbəddülatlar olsa da, sırf natur yanaşmasından mürəkkəb metaforik təsvirə, məkanın çoxsaylı mənalar doğuran çeşidli rakurslarda qurulmasına müraciət olunmasını müşahidə edirik. Rəng sərrast təsvir motivindən yayınaraq tədricən mücərrəd

yaxımlara çevrilir, aşağılarda natural olduğu halda, tavanda dumanlı əlçimlər kimi görünür. Böyük güzgüdə kafe məkanı müxtəlif planlı əkslərə parçalanır. Bu vasitə ilə perspektiv bölünür, tağlı tavanlar, pəncərə çərçivələri qovuşur, kəsişir, qəlizləşir və nəticədə mürəkkəb fəza oyunu yaranır və görünən formaların gerçəkliyinə inamsızlıq doğurur. Eyni zamanda masalar arxasında əyləşmiş müştərilər arasında - kimi qəzet oxuyur, kimi intizar içindədir- tam sakitlik, hətta süstlük hökm sürür. Bununla belə, şəkil məkanında hansısa anlaşılmaz tərpəniş, yerdəyişmə, qalxınma baş verir və süjet yox, məhz bu müəmmalı, açılmamış narahatlıq əsərin əsas motivini təşkil edir, bu da Salahovun əvvəlki sərrast və aydın əsərlərində yox idi. Burada o, artıq başqa düşüncə tərzindən xəbər verən bədii dillə danışır. Bu təsvir dili real görüntülərin və irreal mənaların qarışığından, əvəz olunmasından əmələ gəlir.

Salahov rəngkarlığının enerjiliyini qeyd etməmək olmaz. Bəzən bu keyfiyyət “Roma. “Qreko” kafesi”ndə olduğu kimi azalır və belə “azalma” əsərin mənasından irəli gəlir. Amma ümumi axarda sənət onun enerjisi ilə aşıb-daşır. Bu, rəssamın son əsərlərində nəzərə çarpır. “Lalələr” (2003) natürmortunda qırmızı rəng əsas aparıcı partiyanı öz üzərinə götürür. Onun fəallığı o qədər böyükdür ki, elə bil qırmızı bütün yanaşı rəngləri üstələyir, daha doğrusu, müşayiətçi vəziyyətinə keçirir. Lakin belə koloristik çözüm sayəsində çiçəklənən təbiət gur həyat obrazı təsiri bağışlayır.

Həyatın müasir qavramı, nəinki yeni formal tapıntılarda, həmçinin indiyədək tanınmayan müasirlərin obrazlarında duyulur. İlk özəl təsviri incəsənət muzeyinin banisi, sanballı sahibkar V.İ.Nekrasovun portreti əzmkar və qətiyyətli xadimin çağdaş tipajı kimi canlanır. Onun pozası arxayın, inamlıdır və çəkinmədən öz enerjisini büruzə verən rənglərin çılğınlığından sezilən fərasətdən xəbər verir. Həm də aydındır ki, Salahov sənəti ayrı-ayrı təəssüratlardan, varlıqdan gözəllik axtarışı və

tapıntılarından yeni insanın, müasirimizin səciyyəvi tipini meydana çıxaran uğurlu əməlinin aparıcı qaynaqlarının dərkinə doğru irəliləyir.

Hazırkı dövrdə plastik və məzmun baxımından qazandığı təcrübə Salahovu hansısa yeni mərhələ qarşısına gətirib çıxarmış və bu mərhələ artıq əldə edilənlərin təzələnməsini deyil, dərk edilmiş həyatın qəti surətdə yeni bədii şərhini vəd edir.

**V.S.Manin**

*sənətşünaslıq doktoru, professor*

# Tahir Salahovun həyat və yaradıcılığınınəsas tarixləri

**1928** - Noyabr ayının 29-da Bakı şəhərində anadan olub.

**1945** - Bakı şəhərində orta məktəbi bitirmişdir.

**1950** - Ə.Əzimzadə adına Azərbaycan rəssamlıq məktəbini bitirmişdir;
- V.İ.Muxina adına Leninqrad ali rəssamlıq-sənaye məktəbinə daxil olmuşdur.

**1951** -V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq (İncəsənət) İnstitutuna daxil olmuşdur.

**1955** - "Dalğa" və "Estakada" adlı ilk əsərlərini çəkmişdir;
- Ümumittifaq, xarici və respublika sərgilərində iştirak etmişdir.

**1957** -V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu rəssam-nəqqaş peşəsi üzrə bitirmişdir; Diplom işi olan "Vaxtada" əsəri ilə Böyük Oktyabr Sosialist İnqilabının 40 illiyinə həsr olunmuş Ümumittifaq sərgisində iştirak etmişdir;
-SSRİ Rəssamlıq İttifaqına üzvlüyə qəbul edilmişdir;
- Gənclərin və tələbələrin VI Ümumdünya festivalı çərçivəsində Moskvada keçirilən gənc rəssamların əsərlərinin Beynəlxalq sərgisində iştirak etmişdir.

| | |
|---|---|
| **1958** | - "Səhər eşelonu" əsərini çəkmişdir. |
| **1959** | - "Rezervuar parkı", "Neftçi" əsərlərini çəkmişdir;<br>- "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilib;<br>- Sosialist ölkələrinin təsviri sənət əsərlərinin Moskvada keçirilən Beynəlxalq sərgisində iştirak etmişdir. |
| **1960** | - SSRİ Rəssamlıq Akademiyasının Gümüş medalı ilə təltif edilib;<br>- "Təmirçilər" və "Qara Qarayevin portreti" əsərlərini çəkmişdir. |
| **1960-1961** | - Azərbaycan Rəssamlar İttifaqının məsul katibi, sonra dosent vəzifəsini yerinə yetirmişdir. |
| **1961** | - "Xəzər üzərində" əsərini çəkmişdir. |
| **1962** | - "Bəstəkar Qara Qarayevin portreti" əsərinə görə SSRİ Rəssamlıq Akademiyasının gümüş medalı ilə təltif edilmişdir;<br>- "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. |
| **1963** | - "Azərbaycan SSR Xalq rəssamı" fəxri adına layiq görülmüşdür;<br>- Sülhü müdafiə Sovet Komitəsinin üzvü seçilmişdir;<br>- SSRİ Rəssamlar İttifaqı idarə heyətinin üzvü seçilmişdir;<br>- Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur; |

- Parisdə Beynəlxalq gənc rəssamların əsərlərindən ibarət sərgidə iştirak etmişdir.

**1963-1967** - Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

**1963-1974** -M.Ə.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunda professor vəzifəsində çalışıb.

**1964** - Kommunist Partiyasının üzvü olmuşdur.

**1965** -M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında Şekspirin "Antoni və Kleopatra" tamaşasının tərtibatına görə M.F.Axundov adına Dövlət mükafatı laureatı olmuşdur.

**1966** - SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmişdir.

**1966-1970** - 7-ci çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur.

**1967** - Böyük Oktyabr sosialist inqilabının 50 illiyinə həsr olunmuş Ümumittifaq bədii sərgisində "Abşeron qadınları", "Bəstəkar Fikrət Əmirovun portreti" və "Aydan" işləri ilə iştirak etmişdir.

**1968** - SSRİ rəssamlar İttifaqının idarə heyətinin katibi seçilmişdir;
- "Təmirçilər", "Bəstəkar Qara Qarayevin portreti", "Xəzərdə" əsərinə görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

**1970** - "Yeni dəniz" əsərinə görə M.F.Axundov adına Dövlət mükafatına layiq görülmüşdür;

| | |
|---|---|
| | - Azərbaycan KP MK-nın üzvü seçilmişdir;<br>- V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr olunmuş Ümumittifaq rəssamlıq sərgisində iştirak etmişdir. |
| **1970-1974** | - 8-ci çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur. |
| **1971** | - "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur;<br>- SSRİ-nin yaradılmasının 50 illiyinə həsr olunmuş Ümumittifaq rəssamlıq səgisində iştirak etmişdir. |
| **1972** | - Azərbaycan SSR Rəssamlar İttifaqı idarə heyətinin sədri seçilmişdir;<br>- "SSRİ - bizim vətənimizdir" Ümumittifaq sərgisinin iştirakçısı olmuşdur. |
| **1973** | - SSRİ Xalq rəssamı fəxri adına layiq görülmüşdür;<br>- SSRİ Rəssamlarının IV qurultayında SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi seçilmişdir. Professor elmi adı təsdiq edilmişdir. |
| **1973-1992** | - SSRİ Rəssamlar İttifaqı idarə heyətinin birinci katibi olmuşdur. |
| **1974** | - V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda Dəzgah Boyakarlığı Yaradıcılıq Emalatxanasına rəhbərlik etmişdir. |
| **1975** | - SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmişdir. |

| | |
|---|---|
| **1976** | - Təsviri İncəsənət Beynəlxalq Assosiasiyasının icraiyyə komitəsinin üzvü seçilmişdir;<br>- Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir. |
| **1977** | - SSRİ rəssamlarının V qurultayında SSRİ Rəssamlar İttifaqı idarə heyətinin birinci katibi seçilmişdir;<br>- Böyük Oktyabr sosialist inqilabının 60 illiyinə həsr olunmuş “Leninizm yolu ilə” Ümumittifaq sərgisində iştirak etmişdir;<br>- M.B.Qrekov adına qızıl medalla təltif olunmuşdur. |
| **1978** | - Helsinkidə keçirilən “Realist” Beynəlxalq sərgisində iştirak etmişdir;<br>- Moskvada əsərlərinin fərdi sərgisi təşkil olunmuşdur. |
| **1979** | - Sofiyada realist anqajir rəssamlığı Triennalesində iştirak etmişdir. Triennalenin I mükafatına layiq görülmüşdür;<br>- Yaponiyanın Tokio şəhərində əsərlərinin fərdi sərgisi təşkil olunmuşdur;<br>- Çexiyanın Praqa şəhərində əsərlərinin fərdi sərgisi təşkil olunmuşdur;<br>- Bolqarıstanın I dərəcəli Kirill və Mefodiya ordeni ilə təltif edilmişdir. |
| **1979-1997** | - SSRİ Rəssamlıq Akademiyasının Rusiya Rəssamlıq Akademiyası rəyasət heyətinin üzvü olmuşdur. |
| **1980** | - 10-ci çağırış RSFSR Ali Sovetinin deputatı seçilmişdir; |

- Çexiyanın Praqa şəhərində əsərlərinin fərdi sərgisi təşkil olunmuşdur.

**1981** - Xalqlar Dostluğu ordeni ilə təltif olunmuşdur.

**1982** - SSRİ Rəssamlıq Akademiyasının rəyasət heyətinin üzvü seçilmişdir;
- Sofiyada realis anqajir rəssamlığı Triennalesində iştirak etmişdir;
- Xorvatiyanın Riyeka şəhərində keçirilən Beynəlxalq rəsm biennalesində iştirak etmişdir;
- SSRİ-nin yaradılmasının 60 illiyinə həsr edilmiş "SSRİ - bizim vətənimizdir" Ümumittifaq sərgisinin iştirakçısı olmuşdur.

**1983** - SSRİ Rəssamlarının VI qurultayında SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi seçilib;
- Avstriya Rəssamlar İttifaqının fəxri üzvü seçilmişdir;
- YUNESKO-nun nəzdində Millətlərarası plastik incəsənət Assosiasiyasının vitse-prezidenti və fəxri prezidenti seçilmişdir.

**1984** -11-ci çağırış RSFSR Ali Sovetinin deputatı seçilmişdir;
- Ümumittifaq "Yer və insanlar" sərgisində iştirak etmişdir;
- "Dananın portreti" əsərini çəkmişdir.

**1984-1992** - V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunun Rəssamlıq və kompozisiya kafedrasının müdiri işləmişdir.

**1986** - "Xəzərdə səhər" əsərini çəkmişdir.

**1987** - Fransa İncəsənət Akademiyasının müxbir üzvü seçilmişdir.

**1989** - SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə ictimai fəaliyyəti, sovet təsviri sənətinin inkişafındakı xidmətlərinə görə Lenin ordeni və qızıl "Oraq və Çəkic" medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

**1992** - Rəssamların Beynəlxalq Federasiyasının vitse prezidenti seçilmişdir.

**1996** - Rusiya Federasiyasının Xalq rəssamıdır.

**1996-2000** - Elm, təhsil, səhiyyə və mədəniyyət üzrə Palatanın sədrinin müavini, RF Prezidenti Yanında Yaradıcılıq İttifaqları ilə Əlaqələr Komissiyasının Siyasi məşvərət şurasının sədri kimi fəaliyyət göstərmişdir.

**1997** - Rusiya İncəsənət Akademiyasının vitse prezidenti seçilib.

**1998** - Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İstiqlal" ordeni ilə təltif edilmişdir;
- Rusiya Rəssamlıq Akademiyasının Qızıl medalı ilə mükafatlandırılmışdır;
- Qırğızıstan Respublikasının Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmişdir;
- Azərbaycan Ekoenerji Beynəlxalq Akademiyasının akademiki seçilmişdir;
- İspaniyanın San-Fernando Gözəl Sənətlər Kral Akademiyasının müxbir üzvü seçilmişdir.

| | |
|---|---|
| **2003** | - Rusiyanın II dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilmişdir; - "Şərəf" ordeni ilə təltif edilmişdir. |
| **2008** | - Noyabrın 27-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Heydər Əliyev" ordenini ilə təltif olunmuşdur;<br>- Rusiyanın III dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilmişdir. |
| **2009** | - YUNESKO-nin Pikasso medalı ilə təltif olunmuşdur;<br>- Fransanın "İncəsənət və ədəbiyyat" ordeninin yüksək "Zabit" dərəcəsi ilə təltif edilmişdir. |
| **2010** | - MDB-nin "Birlik Ulduzları" dövlətlərarası mükafatına layiq görülmüşdür;<br>- Rejissor Ziya Şıxlinskinin T.Salahova həsr etdiyi "Ürəyi ilə çəkən rəssam" filminin premyerası keçirilmişdir. |
| **2011** | -Avropa Elm və İncəsənət Akademiyasının həqiqi üzvü seçilmişdir;<br>- Almaniya Rəssamlar İttifaqının fəxri üzvü seçilmişdir;<br>- Türk mədəniyyətinin təbliğində xidmətlərinə görə "Dədə Qorqud" Milli Fondu və "Azərbaycan Dünyası" beynəlxalq jurnalının təsis etdiyi "Vətən övladı" qızıl ordeni ilə təltif olunmuşdur. |
| **2012** | - Ulyanovskda keçirilən A.A.Plastova adına təsviri incəsənət sahəsində beynəlxalq mükafatın - "Beynəlxalq Adlar" nominasiyasının laureatı adına layiq görülmüşdür;<br>- Rusiya Federasiyasının Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. |

## Основные даты жизни и деятельности Таира Салахова

**1928** - Родился 29 ноября в городе Баку.

**1945** - Окончил среднюю школу в Баку и стал учиться живописи.

**1950** - Окончил Азербайджанское художественное училище имени А.Азимзаде;
- Поступил в Ленинградское высшее художественно промышленное училище им. В.И.Мухиной.

**1951-1957** - Московский Государственный художественный институт им. В.И.Сурикова.

**1955** - Принимает участие в республиканских, всесоюзных и зарубежных выставках.
- Первые его работы «Волны»,«Эстакада».

**1957** - Окончил Московский государственный художественный институт имени В.И.Сурикова (мастерская П.Д.Покаржевского) по специальности художник-живописец;
- Дипломной работой-картиной «С вахты» участвует на Всесоюзной художественной выставке, посвященной 40-летию Великой Октябрьской социалистической революции;
- Вступает в члены Союза Художников СССР;
- Участвует в Международной выставке произведений молодых художников, посвя-

щенной VI Всемирному фестивалю молодежи и студентов в Москве.

**1958** - Пишет картину «Утренний эшелон».

**1959** - Пишет картины «Резервуарный парк», «Нефтяник».
- Награжден медалью «За трудовое отличие».
- Участвует в Международной выставке произведений изобразительного искусства социалистических стран в Москве.

**1960** - Награжден Серебряной медалью Академии художеств СССР.
- Пишет картины «Ремонтники», «Портрет композитора Кара Караева».

**1960-1961** - Ответственный секретарь Союза художников Азербайджанской ССР.

**1961** - Пишет картину «Над Каспием».

**1962** - Награжден серебряной медалью Академии художеств СССР за «Портрет композитора Кара Караева».
- Присвоено почетное звание заслуженного деятеля искусств Азербайджанской ССР.
- Избран членом Советского Комитета защиты мира.

**1963** - Присвоено звание Народный художник Азербайджанской ССР;
- Пишет картину «Монтажник», пейзаж «Земля»;

- Избран членом правления Союза художников СССР;
- Избран депутатом Верховного Совета Азербайджанской ССР;
- Участвует в Международной биеннале произведений молодых художников в Париже.

**1964** - Член КПСС.

**1965** - Присуждена Государственная премия Азербайджанской ССР имени М.Ф.Ахундова за оформление спектакля Шекспира «Антоний и Клеопатра» в Азербайджанском государственном театре имени М.Азизбекова.

**1963-1967** - Депутат Верховного Совет Азербайджанской ССР.

**1963-1974** - Преподаватель Азербайджанского государственного института искусств имени М.Алиева.

**1966** - Избран член-корреспондентом Академии художеств СССР.

**1966-1974** - Избран Депутатом Верховного Совета СССР 7-го созыва.

**1967** - Пишет картину «Женщины Апшерона», портрет «Айдан»;
- На Всесоюзной художественной выставке, посвященной 50-летию Великой Октябрьской социалистической революции, участву-

ет работами «Женщины Апшерона», «Портрет композитора Фикрета Амирова», «Айдан».

**1968** - Избран Секретарем правления Союза художников СССР;
- Присуждена Государственная премия СССР за картины «Ремонтники», «Портрет композитора Кара Караева», «У Каспия».

**1969** - Пишет картину «Мексиканская коррида».

**1970** - Присуждена Государственная премия Азербайджанской ССР имени М.Ф.Ахундова за картину «Новое море»;
- Избран членом ЦК КП Азербайджанской ССР;
- Участвует во Всесоюзной художественной выставке, посвященной 100-летию со дня рождения В.И.Ленина;
- Избран депутатом Верховного Совета СССР 8-го созыва.

**1971** - Награжден орденом Трудового Красного Знамени;
- Участвует во Всесоюзной художественной выставке, посвященной 50-летию образования СССР.

**1972** - Избран председателем правления Союза художников Азербайджанской ССР;
- Участвует во Всесоюзной художественной выставке «СССР – наша Родина».

**1973** - Народный художник СССР;

- Утвержден в ученом звании профессора живописи.

**1973-1992** - На IV съезде художников СССР избран первым секретарем правления Союза художников СССР.

**1974** - Руководит творческой мастерской станковой живописи в Московском государственном художественном институте имени В.И.Сурикова.

**1975** - Избран действительным членом Академии художеств СССР.

**1976** - Избран членом исполкома Международной Ассоциации изобразительных искусств (АИАП);
- Награжден орденом Октябрьской Революции.

**1977** - На V съезде художников СССР избран первым секретарем правления Союза художников СССР;
- Участвует во Всесоюзной художественной выставке «По ленинскому пути», посвященной 60-летию Великой Октябрьской социалистической революции.
- Награжден Золотой медалью имени М.Б.Грекова.

**1978** - Участвует в Международной выставке «Реалист» в Хельсинки;
- Состоялась персональная выставка произведений в Москве.

| | |
|---|---|
| **1979** | - Участвует в Триеннале реалистической ангажированной живописи в Софии. Удостоен 1 премии Триеннале;<br>- Состоялась персональная выставка произведений в Японии (Токио);<br>- Состоялась персональная выставка произведений в ЧССР (Прага).<br>- Награжден орденом Кирилла и Мефодия 1-й степени (Болгария). |
| **1979-1997** | - Член президиума Российской академии художеств Академии художеств СССР. |
| **1980** | - Избран депутатом Верховного Совета РСФСР 10-го созыва;<br>- Состоялась персональная выставка произведений в ЧССР (Прага). |
| **1981** | - Награжден орденом Дружбы народов. |
| **1982** | - Избран членом президиума Академии художеств СССР;<br>- Участвует в Триеннале реалистической ангажированной живописи в Софии;<br>- Участвует в Международной биеннале рисунка в Риеке (СФРЮ);<br>- Участвует во Всесоюзной художественной выставке «СССР – наша Родина», посвященной 60-летию образования СССР. |
| **1983** | - На VI съезде художников СССР избран первым секретарем правления Союза художников СССР;<br>- Почетный член-корреспондент Союза художников Австрии; |

- Вице-президент и почетный президент Международной ассоциации пластических искусств при ЮНЕСКО;
- Пишет картину «Портрет Дана».

**1984** - Избран депутатом Верховного Совета РСФСР 11-го созыва;
- Участвует во Всесоюзной художественной выставке «Земля и люди».

**1984-1992** - Заведующий кафедрой живописи и композиции Московского художественного института имени В.И.Сурикова.

**1986** - Пишет картину «Утро на Каспии».

**1987** - Член-корреспондент Французской академии искусств.

**1989** - Указом Президиума Верховного Совета СССР от 24 февраля 1989 года за выдающиеся заслуги в развитии советского изобразительного искусства и общественную деятельность присвоено звание Героя Социалистического Труда с вручением ордена Ленина и золотой медали «Серп и Молот».

**1992** - Вице-президент Международной федерации художников.

**1996** - Народный художник РФ.

**1996-2000** - Заместитель председателя Палаты по науке, образованию, здравоохранению и культуре, председатель комиссии по связям с творчес-

кими союзами в Политическом консультативном совете при Президенте РФ.

**1997** - Вице-президент Российской академии художеств.

**1998** - Награжден орденом «Независимость».
- Награжден Золотой медалью Российской академии художеств;
- Действительный член Академии художеств Киргизской Республики;
- Академик Международной академии Экоэнергии Азербайджана;
- Член-корреспондент Королевской Академии Изящных искусств Сан-Фернандо (Испания).

**2003** - Награжден российским орденом «За заслуги перед Отечеством» 2-й степени;
- Награжден орденом Чести (Грузия).

**2008** - Награжден орденом «Гейдара Алиева».
- Награжден российским орденом «За заслуги перед Отечеством» 3-й степени.

**2009** - Награжден почетным орденом Франции «Искусство и литература» степени офицера;
- Генеральный директор ЮНЕСКО Коиширо Мацуура наградил художника медалью Пикассо.

**2010** - Награжден межгосударственной премией СНГ «Звезды Содружества»;
- Премьера фильма о Таире Салахове режиссера Зии Шихлинского «Художник, рисующий сердцем».

**2011** - Почетный член Союза художников Германии;

- Действительный член Европейской академии наук и искусств;

- Международный журнал «Мир Азербайджана» и национальный фонд «Дэдэ Горгуд» вручил золотой орден «Вэтэн эвлады».

**2012** - Лауреат Государственной премии РФ;

- Лауреат международной премии в области изобразительного искусства имени А.А.Пластова в номинации «Мировые имена», в Ульяновске.

## Görkəmli şəxsiyyətlər Tahir Salahov haqqında

Dünyanın bir çox ölkələrində nümayiş etdirilmiş fərdi sərgiləriniz, məşhur muzeylərdə qorunub saxlanılan əsərləriniz dünya təsviri sənətinin inkişafına xidmət etməklə Sizə, eləcə də Azərbaycan rəssamlıq məktəbinə böyük şöhrət gətirmişdir.

**Heydər Əliyev,**
*ümummilli lider*

Tahir Salahov parlaq ənənələrə malik müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindəndir.

* * *

Siz dünyamiqyaslı rəssamsınız, əsərləriniz dünyanın ən məşhur muzeylərində nümayiş etdirilir. Ən sevindirici hal odur ki, sizin əsərlərinizin böyük əksəriyyəti Azərbaycana həsr olunubdur.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Tahir Salahovun yaradıcılığına qiymət verməyə mənim heç bir hüququm yoxdur. Yaradıcı insanların fəaliyyətinə məmurlar yox, xalq qiymət verməlidir. Tahir Salahov dahi Azərbaycan rəssamıdır, mədəniyyətimizin incisidir. O, xalqının sadiq oğludur.

**Əbülfəs Qarayev,**
*Azərbaycan Respublikasının*
*Mədəniyyət və Turizm naziri*

Tahir Salahov yalnız Azərbaycan Rəssamlıq məktəbinin iftixarı deyil, eyni zamanda bütün çoxmillətli incəsənətin parlaq simasıdır.

**V.Yefanov,**
*SSRİ Xalq rəssamı,*
*SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, professor*

…Mən Tahir Salahovu dövrümüzün insanları barədə öz poemasını yaradan bir rəssam kimi təsəvvür edirəm…. Sənətimiz Salahovun simasında həyatın romantikasını yığcam, monumental biçimdə ifadə etməyi bacaran gözəl rəssam tapmışdır. Onun sərt, romantik boyalarla işlənmiş əsərlərində… həyəcanlı bir müəllim, möhkəm əqidəli bir sənətçinin fırçasını görürəm.

* * *

Biz rəssamlar, istedadımızın bütün gücünü fəhləni, onun ilhamverici, yaradıcı əməyini tərənnüm etməyə sərf etməliyik. Bu işi Salahov istedadla, bacarıqla, yüksək sənətkarlıqla yerinə yetirir. O, inqilab illərinin sənətdəki xeyirxah ənənəsini davam etdirir. İnanıram ki, bir çox başqa rəssamlar da ondan nümunə götürəcəklər.

**Sergey Konenkov,**
*SSRİ Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı*

“Təmirçilər” tablosu rəssamın ən yaxşı əsərlərindəndir. Tablodakı hadisələri hər kəs aydın duya bilər, adi iş günü başlanır. Təmirçilər dənizə çıxmışlar, onlar fikirlidirlər, bəlkə də görəcəkləri iş haqqında düşünürlər. Bu bizə bəlli deyil. Ancaq tabloda onların bu halda verilməsi əsərin təsir qüvvəsini daha da artırır.

**Yenep,**
*alman sənətşünası*

…Azərbaycanlı rəssam Tahir Salahov böyük istedaddır. Biz - çex rəssamlıq məktəbinin nümayəndələri onun yaradıcılığı ilə yaxından tanış olmalıyıq.

**Luboş Qlavacek,**
*çex sənətşünası*

İnsan bir şeyi kəşf edəndə sevinir. İstedadlı Azərbaycan rəssamlarının əsərləri isə bizim üçün doğrudan da böyük kəşv idi. Tahir Salahovun fırçasından çıxmış “Təmirçilər”, “Bəstəkar Qara Qarayevin portreti” elə bir ehtiraslı maraq oyatdı ki, biz həmin əsərlərin reproduksiyalarını çox böyük tirajla buraxmağa məcbur olduq.

**Hertard Hettner,**
*Drezden Qrafika İnstitutunun direktoru*

Tahir Salahov – rənglər dünyasının hökmdarıdır!

**Kiril Lavrov,**
*SSRİ Xalq artisti*

Tahir Salahov haqqında yeni söz demək mənim üçün çox çətindir. Çünki onun həyatı və yaradıcılığına həsr olunmuş ilk kitabçanı mən yazmışam, iki ən məşhur əsəri – “Təmirçilər” və “Bəstəkar Qara Qarayevin portreti” barədə də ilk rəyi, səhv etmirəmsə, mən söyləmişəm. O vaxtlar, hələlik “tənqid süzgəcindən” keçməmiş və Bakıdan kənar heç bir yerdə göstərilməmiş həmin əsərlərə qiymət vermək mənim üçün asan deyildi.

**Mürsəl Nəcəfov,**
*Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor*

Sənət yolçusu üçün böyük xoşbəxtlikdir ki, onun yaradıcılıq müvəffəqiyyəti vaxtında yuksək qiymətləndirilir. Tahir Salahov məhz belə şəxsiyyətdir. Bunun sirri isə məncə, həyatı real dərk etməkdə və onun əksini sadə və dərin, adi və müdrik

göstərməkdədir. Bu, bizə nə qədər asan görünsə də, bir o qədər ağır, əzablı yaradıcılıq prosesidir.

**Hacı Hacıyev,**
*Əməkdar jurnalist*

Mən bəstəkar "Qara Qarayevin portreti"ni çox sevirəm və bu əsəri müasir portret sənətinin zirvəsi hesab edirəm.

**N.Jukov,**
*SSRİ Xalq rəssamı, akademik*

Tahir Salahov boyakarlığın dəzgah formasının incəliklərini dekorativ-tətbiqi sənətdən əxz edilmiş monumentallığın vüsəti, ucalığı və aydınlığı ilə əlaqələndirməyi bacarır. Onun "Bəstəkar Qara Qarayevin portreti", "Təmirçilər" və digər əsərləri bu qəbildəndir.

**A.Kibalnikov,**
*SSRİ Xalq rəssamı, akademik*

Son dərəcə müasir rəssam olan Salahov dövrünün nəbzini həssaslıqla tutur, öz əsərlərində müasirlərimizi tərənnüm edir.

**E.Belaşova,**
*SSRİ Xalq rəssamı, akademik*

Salahovun əsərlərində sovet incəsənətinin ən yaxşı ənənələri aydın surətdə özünü göstərir. Bununla belə, rəssam tamamilə orjinaldır, millidir, həyatı görməkdə, müşahidə etməkdə səmimidir.

**M.Koqan,**
*fəlsəfə elmləri doktoru, professor*

Məşhur Azərbaycan rəssamı T.Salahov böyük istedada malik sənətkardır. O, öz əsərlərində güclü və iradəli adamları təsvir edir. Rəssamın "Təmirçilər", "Xəzərin sahilində",

“Bəstəkar Qara Qarayevin portreti” cidd və mərdanə olmaqla yanaşı, həm də qeyri-adi poeziyaya malikdir.

**N.Tixonov,**
*yazıçı, Sosialist Əməyi Qəhrəmanı*

Salahov öz yaradıcılığında müasir ifadə vasitələrini doğma xalqın zəngin ənənələri ilə əlaqələndirən əsl böyük sənətkardır. Məhz buna görə də onun əsərləri həmişə müasir və eyni zamanda əsl milli əsərlər sayılır.

**F.Romans,**
*SSRİ Xalq rəssamı, akademik*

Tahir Salahov böyük istedaddır…

**Luboş Qlavaçek,**
*çex sənətşünası*

Doğrudan da, onun yaradıcılığı özgə aləmdir. Bu aləmdə elə möcüzələr var ki, biz rəssamlar belə, həqiqətən, yaxşı mənada həsəd aparırıq. Onlar arasında Azərbaycanımızın dünəni və bugünü, əsrarəngiz təbiəti, dünyanın müxtəlif ölkələrində çəkilmiş tablolar var.

**Cəlil Hüseynov,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı, professor*

Tahir mənim oğullarımın ən kiçiyidir. Ancaq hələ uşaq vaxtından özünü elə göstərirdi ki, tanışların bəzisi deyirdi: böyük oğlun Tahirdir. Mən işə gedəndə uşaqları evdə qoyub qapını bağlayardım. Gəlib görərdim ki, Tahir onların hamısına rəhbərlik eləyib, hərəsinə bir tapşırıq verib. Sonra da başlayırdı mənə çəkdiyi şəkilləri göstərməyə. Sabirnən Mahir də şəkillərini gətirərdilər, deyərdilər ki, ana, bax gör kiminki yaxşıdır. Baxıb görərdim ki, Tahirin şəkilləri hamısınınkından yaxşıdır …

**Sona Salahova,**
*Tahir Salahovun anası*

# Выдающиеся деятели о Таире Салахове

Человек, как наиглавнейшая ценность мироздания, в творчестве Таира Салахова всегда находится в центре внимания. В его портретах, наряду со сложным внутренним миром героев, кисть мастера-мыслителя запечатляла и черты века, современниками которого они являются. Портреты Мирзы Алекпера Сабира, Дмитрия Шостаковича, Кара Караева, Фикрета Амирова, Расула Рзы и других выдающихся личностей раскрывают не только величие образов, их духовно-философские искания, но и показывают его личное отношение к человеку и эпохе.

Полотна Таира Салахова, воспевающие природу и людей Азербайджана, преисполнены искренней и глубокой сыновьей любви к родному краю. Созданные им пейзажи и натюрморты отражают чувство безграничной радости и оптимизма от общения с окружающим миром и природой.

**Гейдар Алиев,**
*общенациональный лидер*

Таир Салахов является выдающимся представителем азербайджанской школы живописи. Подавляющее большинство его произведений посвящено Азербайджану. Я был свидетелем очень теплых отношений между выдающимся мастером кисти и великим лидером Гейдаром Алиевым, расценил их как образец настоящей дружбы.

Творчество Таира Салахова всегда отличалось тематическим и жанровым богатством, красочностью и эстетическим совершенством художественной формы. Его работы вошли в золотой фонд национальной сокровищницы искусства.

**Ильхам Алиев,**
*Президент Азербайджанской Республики*

Его полотна отражают несколько периодов истории нашей страны. Понятным языком живописи рассказывают о событиях, людях, о том, чем они жили.

**Владимир Путин,**
*Президент Российской Федерации*

Таир Салахов сделал большой вклад в мировую культуру. Созданные им произведения – портреты композитора Дмитрия Шостаковича, великих композиторов Азербайджана Кара Караева, Фикрета Амирова известны во всем мире.

В связи с 75 летием Гейдара Алиева написано много произведений живописи. Мне кажется, что среди этих произведений портрет, созданный Таиром Салаховым, занимает особое место. Об этом произведении будет написано и сказано много слов.

**Полад Бюль-Бюль оглы,**
*Чрезвычайный и полномочный посол*
*Азербайджанской Республики*
*в Российской Федерации*

Таир - богатство Азербайджана, да и не только Азербайджана, но и России.

**Зураб Церетели**,
*Народный художник СССР*

Салахов - это гений, он останется в истории. Хотя он не писал моего портрета, но я его уважаю. Я чувствую в его работах некоторый реализм, он в своих работах успешно сочетает черные и белые цвета. Как вы знаете, черный цвет - это цвет галантности.

**Пьер Карден**,
